www.kitabxana.net
Mir Cəlal Paşayev adına
Milli Virtual Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan poeziyası": 86 (16 - 2021)

Firuzə Məmmədli

Söz sizindir

Poetik toplu

Bakı - YYSİB – 2021

2021

www.kitabxana.net – Milli Virtual Kitabxananın e-nəşri

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına

Milli Virtual Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan poeziyası"

Bədii-poetik e-kitablar seriyası

Elektron kitab N 86 (16 - 2021)

Bu elektron nəşrlər Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin reallaşdırdığı, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın texniki-yaradıcı yardımıyla icra edilən, "Çağdaş Azərbaycan poeziyası" mövzusunda kreativ layihəsi çərçivəsində hazırlanaraq yayımlanır.

Kreativ-bədii layihənin maliyyələşdirən qurum: YYSİB

Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:

https://kitabxana.net

Rəsmi FB səhifəmiz: https://www.facebook.com/groups/kitabxana

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

Firuzə Məmmədli

Söz sizindir

Poetik toplusu

Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb. YYSİB - 2021

Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov),

yazıçı-kulturoloq, Prezident təqaüdçüsü

FİRUZƏ MƏMMƏDLİ

Söz sizindir

YYSİB - 2021
"Elm və təhsil" - BAKI – 2021

Tərtibçi: **Bəhram Məmmədov**
filologiya elmləri üzrə fəlsəfə doktoru
Korrektor: **Çinarə Rahibqızı**
Kompüter yığımı: **Ləman Namazova**

Firuzə Məmmədli. ***Söz sizindir.***
Bakı, "Elm və təhsil", 2021, 208 səh.

Kitabda, şairin müxtəlif illərdə yazdığı şeirlər toplanmışdır. Bu şeirlərin əksər qismi ilk dəfədir ki, nəşr olunur.

4702000000
N-98-2021 qrifli nəşr

© "Elm və təhsil", 2021

RUHUMLA SÖHBƏT

Anamsan, bacımsan, qızımsan elə,
Halal çörəyimsən, duzumsan elə.
Qeyrətdə, hünərdə özümsən elə,
Dözümdə özün ol, özünə güvən.

Yıxılma, yıxıldın, yeri qucaqla,
Çəkilmə bir addım geri, qucaqla.
Şərə meyillənmə, xeyiri qucaqla, –
Əlində, qolunda dözümə güvən.

Doğuldun qız adda çətin qismətə,
Atalı-analı yetim qismətə.
Yürü, öz əlinlə yetir qismətə,
Taleyin bükülməz dizinə güvən.

Sən elə mərdanə, sən elə safsan,
Doğmaya sədaqət, yada insafsan.
Hardasa, kimdəsə özünü tapsan,
Qəlbinə arxalan, gözünə güvən.

Doğmayıq, yaxınıq, yad da deyilik,
Umsuq ağızlarda dad da deyilik,
Neynək, bircə fəxri adda deyilik,
Sıxılma, simsarım, sözünə güvən,
Özünə, özünə, özünə güvən.

2021

***

Bu gün evdə olmayacam,
Başsız gövdə olmayacam.
Quru sevda olmayacam,
Düşəcəyəm küçələrə.

Başılovlu duracaqlar
– Hara belə? Soracaqlar.
Divan - filan quracaqlar
Karantindən qaçanlara.

Mən şərtləri pozacağam,
Şəri xeyirə yozacağam.
Bir şeir də yazacağam
Dərdə qucaq açanlara.

Ulu Tanrım, bu nə sirdi? –
Hamı evində əsirdi.
Ehsan - filan kəmkəsirdi
Bu dünyadan köçənlərə.

2021

SƏKSƏN YAŞIMA

Bəlkə bu ümiddən çəkilim gedim,
Bəklə taleyimdən silim bu yaşı.
O nikbin görkəmim, şəklim gedib,
Daha az ağlayım-gülüm bu yaşı.

Həsrət ocağıdır içərim daha,
İtib qismətimin açarı daha,
Özüm öz qanımı içirəm daha,
Bəlkə qan bahası bilim bu yaşı.

İstəklər, arzular küsüb içimdə,
İtmişəm bir qismət qüsur içində.
Sabaha sözüm də susur içimdə,
Kim mənə elədi zülm bu yaşı?!

İnam da, iman da yox oldu getdi,
Yaşı qurursuna sıxıldı getdi,
Ümid saraylarım yıxıldı getdi,
Özüm də yıxılım ölüm bu yaşı.

Yerişim duruşum – hənirə həsrət,
Ömrümü-günümü gəmirər həsrət.
Qalmışam bir səsə-səmirə həsrət,
Kiminlə paylaşım, bölüm bu yaşı.

Səksəmdi: bəlkə də yükümdü çəkim,
Tanrıdan verilən hökümdü... çəkim,
Ütülüb qovrulan tükümdü, çəkim,
Yanaram, basdırar külüm bu yaşı.

2021

***

Ağlamaqdan keçib daha,
Xeyir-dua ver şəhidə.
Yolu Haqq Dərgahındadır,
Darlıq etdi Yer şəhidə.

Haqq Dərgahı – Cənnət yolu,
Uçmağın mübarək, şəhid.
Yolun sonunda Allahı
Qucmağın mübarək, şəhid.

Yumaqla ömür sapını,
Haqq üzü sənə tapınır.
Mələk niqablı qapını
Açmağın mübarək, şəhid.

2021

KATARSİS

Gördüyüm əzəbların
Göz yaşında duruldum.
Vaxtın məndə əriyən
Saatına quruldum.

Yolların yaxasıyla,
İmkanın bahasıyla,
Gah toyu, gah yasıyla
Yarışmaqdan yoruldum.

Demə, bu imiş həyat;
Sevincdən çıx, dərdə bat.
Ucaldım qanad-qanad,
Qanadımdan qırıldım.

2021

AKTYOR

Biz onu çox görmüşük
şiri qucaqlayanda.
Biz onu çox görmüşük
fili qucaqlayanda.
Gördük odu söndürüb
külü qucaqlayanda.
Heyranı da olmuşuq,
seyranı da olmuşuq,
əzizimiz bilmişik,
ümidimiz bilmişik
min hoqqadan çıxanda.
Unutmuşuq ki, bu bir
aktyor tryukudur.
Həyat başdan-başa sirk,
oyun onun
kürküdür.

2020

İNTİHAR

Çıxıb getmək; –
ən əlçatmaz.
ən ünyetməz
bir məkanda
yoxa çıxmaq.
Özünü axtarmağa,
yol tapmamaq,
özünü soruşmağa
kimsə tapmamaq.
Gah öz kölgəsinin ardınca,
gah öz kölgəsinin qarşısına düşüb də
qaçmaq... Qaçmaq...
Hər şeyin,
hər kəsin əlvidasında
yaşamaq.
Adam həsrətindən
elə yanmaq ki,
suya düşən əksinin
ağuşuna yıxılıb da,
qucaqlamaq.
Su əksinin dərinliyində
aldanışını duyub da
əbədi yuxuya getmək...

2021

***

Acığını dodaqlarında
gəmirə-gəmirə,
hər günün arxasından
bir təpik vura-vura,
zamanın dabanını
qıra-qıra
yaşamaqdan
yorulmuşdu.
Ah... əbədiyyət!..
Harda tapacaqdı onu
öz ölümündən
başqa...

2021

***

Dəyişdi dünyanın rəngi,
Hamı birrəng olub getdi.
Öz rəngində görünən yox,
Bütün rənglər solub getdi.

Qaldı bəşərin yadında
Hamı korona dadında.
Ölənlərin fəryadında
Qalanlar saç yolub getdi.

Maska düşdü söz deyənə,
Sirr açana, düz deyənə.
Əsgər oğul gözləyənə
Şəhid oğul qolu düşdü.

2021

SÖZ SİZİNDİR

Nə deməli idim,
dedim.
Deməyə sözüm
qalmayıb.
Söz dadı doydurdu
məni,
Ardınca gözüm
qalmayıb.

İndi daha növbə
sizin,
İndi daha yol
sizindir.
Zamanın söz
bülbülləri,
Lap Allaha yol
sizindir.
Bəzəyin söz bağçasını,
Söz bazrından çəkinin.
Söz zərinin, axçasının
Nəfs azarından çəkinin.
İndi daha söz sizindir,
Zamanın söz sərrafları.
Zaman sizə tərəf gəlir,
Dövran sizə tərəf varır.

2018

MƏN BUYAM

Bir gün varam,
Bir gün yoxam.
Bir gün oyam.
bir gün buyam.
Bir gün torpaq,
bir gün suyam,-
Mən də buyam.

Darlıq edir
Yer-Göy mənə.
İçim-çölüm
Ögey mənə.
Yad dilində –
"O key" mənə,
Doğma dildə –
"Oyan! oyan!"-
Mən də buyam.

2018

***

Sən nə düşünürsən,
əzbər bilirəm.
Yazırsan, pozursan,-
əsər bilirəm.
İçimiz, çölümüz
xeyrə açıqdır,
Bircə yolumuz var,-
şeirə açıqdır.
Bizi öldürəməz
əcəlsiz ölüm.
Dözüm yolçusuyuq
bu böyük yolun.

2000

SƏNİ

Nə yaman müəmma olub bu şeir,
Oxudun, yandırıb-yaxacaq səni.
Sehrindən, mehrindən qaçmaq istəsən,
Dartıb ayağına yıxacaq səni.

Dərdin ayağına gəlməyi yoxdur,
Sevinib, üzünə gülməyi yoxdur,
Bir məslək yolunda ölməyi yoxdur,
Qara-qorxu olub, sıxacaq səni.

Mirajdı, gözünü aç, görünəcək,
Toz içində qızıl tac görünəcək.
Canını verəsən, ac görünəcək,
Didəcək, yeyəcək, tıxacaq səni.

Nə yaman müəmma olub bu şeir...

2009

***

Hər cür səs eşidib qulağım, anam,
Hər sözüm üstündən keçib getmişəm.
İçimdə qaynayan bulağam, anam,
İçimdən daşlanıb köçüm, getmişəm.

Əllərim şəklimi çəkməkdən bezib,
Ümidim, inamım təklikdən bezib.
Yollarıma tikan əkməkdən bezib,
Dolaşıb yaxşı-pis ölçüm, getmişəm.

Bir səsdən, bir ündən asılı qalıb,
Taleyim daş üstə yazılı qalıb.
Bu bina uçubsa, özülü qalıb,
Çiynimdə söz yükü – külçəm, getmişəm.

2016

***

Hərə özündən dəm vurur,
Hərənin bir özü var.
Özü özünə deməyə
Hərənin öz sözü var.

Varsa, yoxsa, "mənəm" deyir,
Özünə "birdənəm" deyir.
Dünyaya sürgünəm deyir,
Bax, burada düzü var.

Yığma, yığdın dərd olacaq,
Sərvət də hədər olacaq.
Hamı bərabər olacaq,
Amma geci-tezi var.

2018

***

Otaq tənha, oturmuşam bayaqdan bəri.
Nə gələn var, nə gedən var, nə də zəng edən.
Ağır-ağır ötüb keçən dəqiqələri
Soyuq-soyuq xəyallarda əridirəm mən.

Qış fəslidir, eşik şaxta, ağaclar çılpaq,
Təbiət də – qış səbrdə, bir qış dözümdə.
Susur təbim, susur qəlbim, susur ağ varaq,
Təbiətin parçasıyam elə özüm də.

Göz güləndə qəlb yas tutur şeir həsrətindən,
Həm qəlbimdə, həm gözümdə güləcəyəmmi?
Varlığımda haçandır ki, oyanmışam mən,
İdrakımda bəs oyana biləcəyəmmi?

1974

***

Söz, sənət düzgüsündə
Zaman gəldi-gedərdi.
Nalə, sızıltı, fəryad
Vaxt önündə hədərdi.

2016

BƏLKƏ

Bəlkə nə səliqə,
nə səhman gərək.
Bəlkə nə ar gərək,
nə ərkan gərək.
Bəlkə eyib yoxdur
bu gen dünyada.
Bizi dardan-dara
çəkən dünyada.
Bəlkə nə qohum var,
nə dost, nə tanış.
Hamı bir-birini
tanıyır...
Danır...

2019

***

Şübhə dumanıydı kəsdi yolları,
Köhnə cığırlarda gümanım azdı.
Qaldırıb taxtından xəstə yolları
Əlim tək gözümün üstündən asdım.

Ölçüldü, biçildi gərəksizliyim,
Gərəyim olana ürəksiz oldum.
Bu gündən sabaha ürəksizliyim
Daha özümə də gərəksiz oldu.

Zamanı maska tək taxdım üzümə,
Mən özüm özümü tovlaya bildim.
Tanrı savaşına çıxdım özümlə,
Tor qurub özümü ovlaya bildim.

1993

***

Bütün fikirlər dolusu
Beynimdə yaşamağım var.
Dünyanı ağır yük kimi
Çiynimdə daşımağım var.

1980

***

İçimdə bir qorxu, təlaş,
Əriyirəm yavaş-yavaş.
Nə dost bilər, nə də qardaş
Dünyadan köçən günümü.

2016

***

Tanrı səsli,
qar nəfəsli,
gənclik həvəsli
bir gündə gəldim
Dünyaya.
Anam məndən
bezməmişdi;
ailənin
üçüncü qızı idim,
bəxtin ağ üzü,
taleyin gündüzü idim.
Nə bileydim,
gözlərimin rənginə
qısqanan
göy üzü
bu rəngi kədər,
dərd tutqunluğu ilə
pərdələmək üçün
nə plan tökür,
nə yollar arayır.
Və nə qədər ki
bilmirdim,
Göylər qanadım,
Yer mehvərim idi.
Dünya mənim idi...

Geci-tezi var, deyirlər
hər nəsnənin.
Tezi gələndə
gördüm o "nəsnəni".
O "nəsnə"
mənim itirdiyim idi,
ana bərabərində.
O gündən
xarabazara
çevrilən
uşaqlığım,
gəncliyim
qocalığıma doğru
qaçan yolların
qançır ayaqları,
çatılmış qaşları,
qıcanmış dişləri oldu, –
arzularıma,
ümidlərimə,
əzablarıma qarşı.
Mən ölüb-itmədim,
zira
Allah mənə tərəf idi.
Yetimin heç nəyi
yoxsa da,

başının üstündə
Allahı var.
Onun gözündən
heç nə yayınmır.
Ən əsası da
haqsızlıq...

2000

***

Qələbə zahirdə idi –
göz önündə,
məğlubiyyət isə
daxildə idi –
görünməzlikdə.
İçinin həqiqəti
zahirdəki saxta qələbəni
üzünə çəkib,
düşmüşdü kütlələrin
dabanına.
Xarabazara çevirdiyi
keçmişini
kərpic-kərpic,
sütun-sütun,
pillə-pillə,
ucaldacağına
əqidəsi qəti olsa da,
inamı az idi.
Onun məğlubiyyəti də
elə bu "az"dan
keçirdi...

2017

***

Ağrısına dözdüyüm,
Əzabından bezdiyim,
Kölgəsində gəzdiyim
Günlər, əlvida sizə.

Öz əlimdi, öz başım,
Yurdum–mənə sarmaşıq.
Kövrəkliyim, göz yaşım,
Belə, əlvida sizə.

1980

***

Necə qaçım qurtarım
Bu həsrətin əlindən.
Gedib kimə calayım,
Dərd əsməsin əlimdə.

Fikir başımdan ağır,
Sozalıram mən fağır.
Başıma dərd-qəm yağır
Bu qismətin əlindən.

2017

***

Düzü dilindən asıb,
Nə yalansıt, nə bezdir.
Eşitməyə, görməyə
Elə göz-qulaq bəsdir.

2000

***

Kökümüz üstdə bitdik,
Ot olmadıq, neyləyək?!
Heç nədən oda düşdük,
Od olmadıq, neyləyək?!

***

Heç kəsin olmayanın
Hamıya dəxli varmış.
Haqsızlığın boynunda
Gör neçə haqlı varmış...

2014

MƏN ÇOXDAN

Mən çoxdan,
lap çoxdan
sınıq qanadıma
sığınıb
Yer üzünü seyr edirəm, –
insanlığın,
heyvanlığın
hər üzünü seyr edirəm.
Seyr edirəm
zarafatla
atılan raketlərin
düşdüyü meydanları.
Meydanda axan
qanlara heyranları.
Seyr edirəm
efir məkanında
ailə qurub ayrılan
gəncləri,
qocaları.
Mən çoxdan,
lap çoxdan çıxmışam
atəşli qoynundan
insana sevginin.
Heyvanlara:
itlərə, pişiklərə

meyl salıram

uzaqdan-uzaqdan.
Ah!
necə də ağıllıdırlar!
Heç bir
məktəb keçmədən,
heç bir
elmə əyilmədən
necə də
dərrakəlidirlər!..

2019

QONAQ KİMİ

Döyürəm,
tıqqıldadıram
məzar daşını
təzə evinin,
məzar evinin
qapısını.
"Evdəsənmi,
ay məzar yiyəsi?
Məzardasanmı,
ay ev yiyəsi?
Gəlmək olarmı?"
"Qapını" açmırsan
üzümə.
Heç belə olmamışdı,
bacı.
İstəmirsən
qonaq gəlim...
Yaxşı, çıxıb gedərəm.
Məzar daşından
son taqqıltımı da,
son öpüşümü də
götürüb,
gedərəm, bacı.
Üzülmə,
üzülmə,

üzülmə.

Bilirəm, evindəki kimi
burda da
öz ixtiyarında deyilsən.
Üzülmə.

2019

***

Hələ bəla görməmişəm
Başımın bəlası kimi.
Mənə sığınan kədər də –
Dərdlərin əlası kimi.

2016

***

Bombardman olunan
ərəb xalqına

Gözləri
göz yaşlarından
aşağıda,
qəzəbli dənizlərə
ünvan verən
divanələr,
sizi sevməyən
bəşərə doğru nə qaçırsınız?!
Sizi bombalayıb,
yurdunuzdan–ünvanınızdan
tökürlər
səhralara,
dağlara,
düzlərə.
Əkirlər sizi quru ağac kimi
gecələrə,
gündüzlərə.
Çiçəkləməyəcəksiniz,
bu məlum.
Nə qaçırsınız
sizi əzib məhv edənlərin
ağuşuna!
Ah, əcayib dünya!

2017

***

Yazmağa meylim azalıb,
Bilmirəm neynim, azalıb.
Fikirlər xeyli azalıb,
Azalıb duyğular gedib.

2016

***

Nərmənazik can-cəsəddi,
Artdı, şişdi, yekəldi.
İndi gövdə, indi lətdi, –
Elə bil gil heykəldi.

2011

***

Vay halına, ay qız ağlı,
Səni azdırmaq asan.
Dünya elə baş-ayaqdı,
Niyə də azmayasan?!

2011

***

Mən ki olmamışam milyonluq elə,
Gəlməz əlimdən də fironluq elə.
Gəl açıl başımdan biryolluq elə,
Onsuz da yaşayır hərə özüyçün.

2016

***

Dünən hundum, bugün türkəm,
Azərbaycan boyda sirkəm.
Məni büküb təzə kürkə,
"Gəl avropalılaş", deyirlər.

1994

***

Ürəyim ahdan üzülüb,
Bir qart günahdan üzülüb.
Əlim Allahdan üzülüb,
Gedirəm hara, bilmirəm.

Qolaylandım qışdan çıxam,–
Bir mən oldum başdan çıxan.
Bu çörəyi daşdan çıxan
Ömrü apara bilmirəm.

1972

***

Bu dərddən də
qaçıb çıxdım.
Bağlı qapı
açıb çıxdım.
Lap qismətdən
acıq çıxdım;
Səbrim,
ömür əmanəti!..

2009

***

Mən də vuruldum bu pula,
Döndüm qarşısında qula.
Məni saldığı bu yola
Düşüb də ayaq döyürəm.

2000

***

Ağır-ağır yazıram,
Bir az fağır yazıram.
Təzə cığır yazıram
Köhnə yolun içində.

"Uzun, incə yol"dumu?
Qalsa dincə, yoldumu?
Sıxın küncə, yoldumu
Bunca zülüm içində?

2010

***

Onun cəsədi-ölü,
Onun ruhu sağ idi.
Evinə, eşiyinə
Bir günlük qonaq idi.
Üz sıyıran, saç yolan
Bir kədərdi yan-yörə.
Bir qəfil zərbə ilə
Dərbədərdi yan-yörə...
Bir az keçəcək, yerdən
Götürəcəklər onu,
Axirət mənzilinə
Ötürəcəklər onu...
Hələliksə;
Yaxın-uzaq,
Dost-tanış
Göz yaşından üzülür,
Mərsiyə süfrəsinə
Mərhumun xoş xisləti,
Açıq qəlbi düzülür...

2011

***

At çiynindən tənbəlliyin kürkünü,
Qov içindən səksəkəni, qorxunu.
Görürsən ki, bu boydana ölkəni,
Çəkəcəkdi, qapaqapdı saxlayan.

1992

***

Gen-boluna xərcləyirik sözləri,
Tənləyirik əyriləri-düzləri.
Mərəkəli, səksəkəli izləri
Hamarlayıb tez salırıq sahmana.

Biləmmirik yaxşı nədir, pis nədir,
Parlayırsa, qızıl nədir, mis nədir?
Qorumaqçın abır, həya, isməti
Dəsmallayıb biz salırıq sahmana.

2016

***

Deyən yenə varlığımdan yox oldum,
Məni büküb bürmələdi bu sükut.
Yaxa kimi açılmışdı ürəyim,
Onu çəkib düymələdi bu sükut.

2019

***

Daha gözümdən qaçır, –
Yaxşı-yaman seçmirəm.
Məqsədə yüz körpü var,
Heç birindən keçmirəm.

2018

"YOX" DA BİR SÖZDÜR

"Yox"un üzü qaradır,
"Yox"dan Allah da bezar.
"Yox"un pilləsi yuxarıdır,
"Yox"da kasaddı bazar.
"Yox" da bir sözdür;-
puldasa,
vicdandasa,
var-dövlətdəsə,-
pis.
Xəstəlikdəsə,
xəsislikdəsə,
xəbislikdəsə,–
yaxşı.
Xəstəliyi – yox.
Xəsisliyi – yox.
Xəbisliyi – yox.
İkiüzlülüyü – yox.
Bu necə üzüqaralıqdı bəs?
Bu yoxdan kim bezər?
Yaşasın belə bazar!

1987

LÖVHƏ

"Təbiət" silsiləsindən

YAZ

Çəmən-çəmən olub yazın sinəsi,
Çayları bağrına basıb düzənlər.
Qızıl lalələri tələm-tələsik
Yığıb
sinəsindən asıb düzənlər.

PAYIZ

Keçib getdi yay günəşi, yay küləyi,
payız yudu əllərini.
Ağacların budağında mürgüləyir
yarpaqlar son günlərini.
Budaq-budaq cırmaqlanır
heyvaların yanaqları,
yollar, izlər xəzəllənir.
Gecələr – bir şirin nağıl;
Çözələnir... Çözələnir...

1972

QULAĞIMA SƏSLƏR GƏLİR

Qulağıma səslər gəlir,-
hardan gəlir?
Kim göndərir?
Gələn səsləri tuturam,
qulaqlarımla uduram.
Qulağıma gələn səsdən
azalmıram,
çoxalmıram.
Qulağıma dolan səsi
barmağımla çıxarmıram.
Gəlir, gəlsin, xoş görmüşük!
Bu səsləri tutmaqla da
iş görmüşük.
Hardan gəlir,
kim göndərir bu səsləri,
bu sözləri –
düz eləyir.
Amma heyif,
məni bir az həyacanlı,
bir az səbirsiz eləyir.

1996

***

Mənim düşüncələrim
Daha uzaq gedəmmir.
Mən keçən keçidləri
Bir yalquzaq keçəmmir.

2014

***

Bir qara qarğa gördüm,
Gözündə dalğa gördüm.
Bir ağ qu quşu gördüm,
Rəngində qışı gördüm.

2018

***

Yaddaşımın sil-süpürü başlanıb,
Gözlərimə kül üfürüb, başlanıb.
Məni elə-belə görüb başlanıb
Əllərimin künc bucağa səfəri.

2018

***

Girib feyzbuklara,
Hamı daşla oynayır.
Kimi ayaqlarıyla,
Kimi başla oynayır.

Oyun gedir dünyada,
Oynadan, oynanan kim.
Bir Allah bilir burda
Qoyun kimdi, adam kim.

2018

***

Daim səni aldadır
İçindəki ümidlər.
Doğrulursa, bal dadır
Həlli çətin ümidlər.

2014

HEÇ BELƏ DƏ
İŞ OLAR

Əlin qələmə yatsın,
Təkliyin göyərməsin.
Tanrı başını qatsın,
Əkdiyin göyərməsin.

Sürünüb dizi üstə,
Düşəsən üzü üstə.
Ömrünün izi üstə
Çəkdiyin göyərməsin.

2010

***

Elə düşünməyin susumaq razılıq,
Elə düşünməyin qorxudu susmaq.
Nifrətin bəxtinə susmaq yazılıb,
Nifrətin cavabsız oxudu susmaq.

2009

***

Çaşıb əlimizdən çıxa bilmişik,
Üzümüz suyunu quruda bilib.
Kiməsə dörd gözlə baxa bilmişik,
Kimsə gözümüzü yorulda bilib.

2014

GİZLƏ

Gizlə ürəyindən keçəni, gizlə,
Bəxtində zülməti, gecəni gizlə.
Gizlə ümidindən köçəni, gizlə,
Sirrini verməyə dəyməz bu dünya.

Sənin taleyinin enişi – dərin,
Düşdün, çıxammazsan təkindən yerin.
Uzatma, uzatma, yanar əllərin,
Gülünü dərməyə dəyməz bu dünya.

1980

***

Açın gözlərinizi,
Dünya qapanıb mənə.
Ha döyürəm, döyürəm,
Açmır qapını mənə.

2014

***

Əslində nə baş verib ki!..
Bir azca dərdlər
çoxalıb,
Bir azca da
dərd çəkənlər.
Artıb gözdən qıl çəkənlər,
Açıq gözə mil çəkənlər.
Qapı-qapı sirr çəkənlər
artıb bir az...
Söz içindən söz çəkənlər
artıb bir az.
Əslində nə baş verib ki!..

2003

***

Xırda bir təsəlli boyu
Özümdə qala bilmədim.
Xırda oyunlar əlindən
Özümü ala bilmədim.

Cəllad oldu sərt əməllər,
Hər addımı şərt əməllər.
Sevincimdən dərd əmənlər
Məndən azala bilmədi.

2016

DARIXMA

Yavaş-yavaş unut olub-keçəni,
Yavaş-yavaş gəl özünə, darıxma.
Çək üzünə həqiqətin bir üzün,
Bir yalanın min üzünə darıxma.

İçərində innən belə gül açmaz,
Çiçəkləməz innən belə ömür-gün.
Lal sevdalar ölüb gedər, dil açmaz,
Susub durar, sükut dinər sənincin.

2017

SAĞ OLSUN

Söz vermişəm, ta baxmaram üzünə,
Yaşım, qurum ürəyimdə dağ olsun.
Yaza çıxım, yaya çıxım, payızım
Qış ömrümün qucağında sağ olsun.

Solub getdim tikanımdan gülümə,
Yandım, bişdim alovumdan külümə.
Aldanmaram bir də dadlı dilinə,
Qoy qayıtsın, qoy üzümə ağ olsun.

Yarı canın yarımcanı – mən adda,
Səfər olmaz, axı sınıq qanadla.
Dağ da olsa, dözəmməz mən inadda
Bir ağrını didişdirən çağ olsun.

2010

YUXUYOZMA

Yuxu görəndə
eləsini gör ki,
tərsinə yozanda
həqiqət olsun.
Məsələn belə:
Yuxuda gördüm ki,
ölkədə
haqsızlığın kökü kəsilib.
Yuxuda gödüm ki,
Qarabağı hücumla
qaytarmışıq.
Yuxuda gördüm ki,
korrupsiya yoxdu bizdə.
Yuxuda gördüm ki,
övladlar analarını öldürmür.
Yuxuda gördüm ki,
gənclər arasında
narkomaniya,
cibgirlik yayılmayıb.
Yuxuda gördüm ki,
adam alverinin kökü kəsilib.
Yuxuda gördüm ki,
hər gün
qadın öldürülmür.
Yuxuda gördüm ki,..

Bəsdi, canım,

Ayılmaq vaxtıdı.
Yoxsa cinayətlərin sayı
arta-arta gedəcək...

2010

***

Hərə bir hava çalır,
Hansına oynayasan?!
Bəlkə birini deyil,
Hamısını oynayasan?!
Bəlkə oynamayasan,
Cəmiyyət meydansa da.
Səni dartıb oyuna
Qatanlar şeytansa da.
Oyundan kənar qalıb,
Eləcə yayınasan.
Hər şeyi uduzub da,
Birdəncə ayılasan.
Deyəsən, dadi-bidad,
Demək bu imiş həyat!..
Zirvəyə layiqlərə
Bir quyu imiş həyat!..

2011

***

Qayğılar alıb canımı,
Yaman dovtələb olmuşam.
"Yaşayıram", deyə-deyə
Haçandı tələf olmuşam.

Düyünüm vuruldu haçan?
Yoxmu bu düyünü açan?
Özüm öz boğazıma keçən
Pırtlaşıq kələf olmuşam.

2000

...ÜÇÜN

Kələk qurub, qəlb incidib,
Ürək sıxanlar çoxalıb.
Sizin sayənizdə mənə
Ögey baxanlar çoxalıb.

Gördüyüm bir gün olmayıb, –
Yun bilib, darayıb məni.
Çox da, nifrət, kin olmayıb,
Qısqanclıq arayıb məni.

Haqqımda yazmaq istəyən
Sizdən çəkinib yazmayıb?
Yazıb da... Siz istəyəni...
Qəlbindəkini yazmayıb.

Neyləmişəm, məni görəcək
Yeddi rəngə boyanırsız?
Elə bil, bir ömür qəflət
Yuxusundan oyanırsız.

Sizə neyləyə billəm ki?!
Qulbeçəniz... Gidləriniz...
Böyrünüzdə yaltaqlanan
Tulalanan itləriniz...

Amma mənim tək canım var,
Heç kəsə də kinim yoxdur.
Hökmü adil vicdanım var, –
Əlindən xoş günüm yoxdur.

Göz önüyəm, fəqət məni
Görməyə də çəkinirlər.
Sizdən qorxub mənə salam
Verməyə də çəkinirlər.

"Otuz yeddi" deyilsə də,
Ayaqdadır o şər "yeddi".
İndi sizin kimilərdən
Talelərə düşür "yeddi".

2021

BU QƏMİ BAZARA ÇƏKMƏ, ƏZİZİM

Beş günlük, on günlük dünyada təksən,
Bilirəm, sonadək əlləşəcəksən.
Qəlbə yük olacaq dərdi də çəksən,
Çəkməsən, qaçacaq, çəkmə, əzizim.

Kimsə yaxın qoymur, o da yar gəzir,
Açıq qapı gəzir, kor hasar gəzir.
O da bazar gəzir, sahibkar gəzir,
Bu qəmi bazara çəkmə, əzizim.

Tükənir, talanır istisi daha,
Artır ah-zarı, xəstəsi daha.
Görürsən, tikanı üstəsən daha,
O gülü qəlbinə əkmə, əzizim.

Bu kədər səninlə əkizdi, yoxsa?
Ömründən-günündən əzizidi, yoxsa?
Yolunda daşlanan dənizdi, yoxsa?
Çökmə bu dənizə, çökmə, əzizim.

Başının üstündə kölgəsi gəzir,
Qəlbində mütisi, köləsi gəzir.
Ayağında bütöv ölkəsi gəzir,
Sökmə hasarını, sökmə, əzizim.

1996

***

Dilimdə söz göynəyi var,
Taleyimdə döz göynəyi.
Ürəyimdə öz göynəyim
Hər göynəkdən tez göynəyir.

1990

***

Əməl insafı ol, söz insafı ol,
Çəki insafı ol, dəyər insafı.
Haqqın, ədalətin boz insafı ol,
Özünü bəyənmə,bəyən insafı.

1996

***

Dərd açılsın başımdan,
Kimsə ilə işim yox.
Məscid əlyetməz olub,
Kilsə ilə işim yox.

Mən də özümçün elə
Yaşayıb yaradıram.
Sözün qum dəryasından
Mirvari arıdıram.

2017

MƏNİ

Canımda qışlayan ömürdü, nədi?
Canımı qışında öldürdü, nədi?
Bu bulaq gözümü hönkürdü, nədi?
Qaynadı, qışımdan əritdi məni.

1990

***

Əlimdən gəldi, gəlmədi,
Çalışıram susam mən də.
Məni unudanlar bilib
Düz dünyadan küsən mən də.

Gözüm elə pəncərədə,
Üzüm qapıya durmuşam.
Darıxıram, həsrət ilə
Mən həmqafiyə durmuşam.

Əbəs yerə gözləyirəm,
Gedənim yox, gələnim yox.
Gələnlərə sevincim tək
Gedənlərə ələmim yox.

Əlim gözümün üstündə,
Axı kimi gözləyirəm?
Təkliyimin hücrəsində
Təkliyimi gözləyirəm.

Bilirəm ki gəlməyəcək
Allahın bir pişiyi də.
Amma gözüm çəkiləmmir,
Qalıb qapı deşiyində.

2003

***

Eh, daha o gün də deyil,
Eh, daha o vaxt da deyil.
Hər duran özüyçün deyil,
Hər oturan taxtda deyil.

Bu "otur-dur" dünyasının
Darğaları – üzdə daha.
Duyğular oyun-oyundu
Qaşda daha, gözdə daha.

Geri dönüb vaxt axını,-
Arxadakı öndə gedir.
Birinin uğur şələsi
Yüzünün çiynində gedir.

2017

YUXUM

Yuxumun cibinə girdim
yenə də,
Bir ovuc düyü tək dağıldı
yuxum.
Deyən mürgüdəydim,
gördüm yenə də
Yuxu yox, sehrdi, nağıldı
yuxum.

Şərə qarşı durub lənət
deyirdi,
Qılıncı, qalxanı yoxdu
yuxumun.
Qaşınmayan yeri
qanat deyirdi,
Sözünə baxanı yoxdu
yuxumun.

Ay səni, dərbədər yuxu
yorğunu.
Mürgülə bir qədər, yuxu
yorğunu.
Mələklər yürgələr, yuxu
yorğunu,
Yuxunun mələkdən
yaxını yoxdu.

2007

İTƏN DEYİLƏM

Onsuz da mən səndən ümid kəsmişəm,
Onsuz da əlimi üzmüşəm səndən.
Bir səhvin sədasın, ünün kəsmişəm,
Belə incimişəm, küsmüşəm səndən.

Əlimdən nə gəlir? Çəkilib getmək,
Yolunda qanqal tək bitən deyiləm.
Mən də bir caniyəm, vəklim – getmək,
Gedirəm, getsəm də, itən deyiləm.

2000

GÖZLƏRİM

I naxış

Gözümün biri
mənimdir,
biri mənim deyil.
Heç özgəsinin də
deyil.
Amma
görürəm
hər ikisi ilə;
mənim olanla
rəngləri tünd,
mənim olmayanla
açıq boyada
görürəm.
Tünd boya
qəlbimə,
açıq boya
əynimə yaxındı.
ikisinin arasındakı isə
mənəm...

2011

GÖZLƏRİM

II naxış

Bu dünən idi,
srağa gün idi,
nə bilim,
bəlkə də
on il,
on beş il
əvvəl idi.
Hər iki gözüm
mənimki idi.
Aralarında
birlik vardı.
Biri ağlayanda
biri gülmürdü.
Biri tünd
biri açıq
boyada
görmürdü
Dünyanı.
O mən idim.

2011

QOCA ŞƏRQ

Bu qoca
   o qocaydı,–
min il əvvəlki qoca;
milyon illik kəhərinin belində -
   Qərbə doğru çapırdı.
At bağrı çatladandı
o illərin yürüşü.
O isə bu yollarda
   gələcək ünvanına
   qorxu bilməz çapardı...

***

Bu qoca
   o qocaydı, –
min il əvvəlki qoca;
bu səhra uzanırdı,
bu qoca yol gedirdi.
Ovsarında bir dəvə,
   bir də köşəyi vardı...

***

Bu vahə uzanırdı,
bu qoca yol gedirdi –
yedəyində bir yabı,
   bir də eşşəyi vardı.

Bir də onlara yoldaş

kədərli zümzümələr,–
bir az dua-sanalı,
bir az giley-güzarlı...

***

Bu qoca o qocaydı –
yüz il əvvəlki qoca.
Ağır addımlarında
qandalların harayı
bu qoca yol gedirdi
üzü Sibirə sarı.
Dəvəsi oğurlanmış,
atını kəsmişdilər.
Eşşəyini talamış,
köşəyi yemişdilər.
Özünə söymüşdülər,
sözünə söymüşdülər,
at bağrı çatladan
illərinə söymüşdülər.

***

Bu qoca yol gedirdi,
bu yollar uzanırdı.
Üzü Sibirə sarı.
Qocanın nəyi vardı-

ulusunu,
ölüsünü

soyub talamışdılar.
Onu
parçalamışdılar
səbrə,
cəbrə, naləyə.
Bölmüşdülər qocanı
sevincliyə,
dərdliyə,
yumşaqlığa,
sərtliyə.
Bölmüşdülər qocanı
xarabalığa,
abadlığa,
əsarətə,
azadlığa,
üsyana...

***

Bu qoca o qocaydı,–
on il əvvəlki qoca;
Bu yollar uzanırdı
indi tarlaya doğru,
indi zavoda doğru,
indi fabrikə doğru.

Bu yol – uzun yoluydu,
bu yol – nurlu yoluydu.
Bu qoca yol gedirdi –

Amu dərya,
Sır dərya
hərəsi bir qoluydu.
Bu qoca yol gedirdi;
Yolu zəhmətə doğru,
Yolu şöhrətə doğru.

1984

BU GÜNDƏN ƏSGƏRDİRLƏR

Vətən oğullarına

Deyəsən,
bir nömrə böyük gəlir
əsgərlik
kimisinin boyuna,
kimisinin cəsarətinə,
kimisinin qüruruna;
duruşuna,
yerişinə,
baxışına.
Hələlik böyük gəlir
əsgərlik
bu sütüllərin
gəncliyinə.
Fəqət,
bu gündən əsgərdirlər, -
əsgərdirlər gələcəklərinə,
əsgərdirlər arzularına,
ümidlərinə.
Neçə illər
sonrakı
oğullarına,
qızlarına,
bu gündən əsgərdirlər.

Duruşlarında,

yerişlərində
sıralanmalarında
  hələ ki,
bir qəribəlik,
  kimsəsizlik
  duyulur.
Kiminin qəlbində:
"Gözləyə bilmədim
bibim oğlunun toyunu".
Kimi elə bil
  indicə
On səkkiz ilin yuxusundan
  oyanıb.
Kimi
hər kəsə, hər şeyə
  yetiklik
astanasında
dayanıb.
Di gəl,
  bir iş var ki,
hamı
hürkə-hürkə baxır
yoldaşının
  qırxıq başına

ətəyi çəkmələrinə
dolaşan
əsgər plaşına...
Bu gündən
bir nömrə böyük əsgərliyi
geyib əyinlərinə
qoşulublar
Vətənin çağırışına.

1984

ELEGİYA

O, bu planetin qızı deyildi,
Kosmik fəzaları yenib gəlmişdi.
Gələn sədasıydı, özü deyildi.
Ulduzdan süzülən, Aydan düzülən.
Gümüş pyllələrlə enib gəlmişdi.

Nə Yerə, nə Göyə sığırdı düzü,
Sözdən alışırdı, sözdən yanırdı.
Buluddu, səmadı, dənizdi üzü,–
Tutulur, açılır, dalğalanırdı.

O bir Ay qızıydı, Səma qızıydı,
Qəlbində yaşadı, qəlbində öldü.
Ölən səsi deyil, ölıən özüydü.
Axşamın, səhərin, gecə-gündüzün
Əsrin, saniyənin əlində öldü.

1984

XƏZİNƏLƏR VAR

1970- ci ildən bəri
yolunu gözlədiyim mənzilə.

Ümidim min yerdə, özüm bir yerdə,
O yurddan-bu yurda daşındı ömür.
Qələmim bir yerdə, sözüm bir yerdə,
Özümdən xəbərsiz yaşandı ömür.

Yolu nə çətinmiş bu son mənzilin,
Bu son duracaqda nələr, nələr var.
Mənə veriləcək "altun" mənzilin
Deyəsən altında xəzinələr var.

Bir yerə kül töküb od vurduğum yox,
Eşidən yiyəsiz zənn edər məni.
Bir yerdə yurd salıb oturduğum yox,
Düşər məzarım da dərbədər mənim.

O qədər qaçmışam bu yollarda ki,
Qaçqın duracaqlar üzümə baxmır.
Daha səbrimdəki, iradəmdəki
İnam da, ümid də məndən uzaqdır.

1977

***

Məndən daha ümid, inam gözləmə,
Belə dünya, belə zaman, belə gün.
Göz yaşlara təslim olub, söz qəmə,
Çərxi belə amansızmış fələyin.

2009

AND YAXASI

Çox düşündüm-daşındım,
Tapıb, təzə dil açdım.
Qaçıb köhnə özümdən,
Yeniliyə gül açdım.

Əllərin soyub atdı
Köhnə məni özümdən.
Bağça-bağça açıldım,
Çöl-çəməni – özümdə.

Sıxdım çöl çiçəklərin,
Ətirləndim o ki var.
Baxdım ki, bir yoxluğam,–
Nə ölçüm, nə çəkim var.

Çəkdim, əsəblərimin
Cilovunu, saxladım.
Ötüb keçən ömrümə
Nə yandım, nə ağladım.

Baxdım, irəli yol yox,
Geri qayıtmaq – çətin.
Deyən son yolçusu da
Mənmişəm həqiqətin.

Gördüm ki, taleyimi
Məndən əvvəl yazıblar.
Hər günə, hər saata
Rejum, cədvəl yazıblar.

Sxemləşib ömür-gün,
Söz, kəlam sxemləşib.
Seçilmir halal, haram,
Dərd-bəla sxemləşib.

Hər kəs bir yük atıymış,
Yükünü çəkməlidir.
Sabahın yedəyində
Bugünü çəkməlidir.

Ömür-gün can bahası,
Qan bahası olurmuş.
Dünya haqq deyənlərin
And yaxası olurmuş...

2018

OYANIR YAVAŞ-YAVAŞ

Oyanır yavaş-yavaş
qəlbimdəki ağrılar,
hissimdəki ağrılar,–
telimdəki ağrılar.
Oyanır yavaş-yavaş
ümidimin dan yeri –
əzabımın dan yeri,
sevincimin dan yeri.
Məni məndən ayıran,
məndən
xırda bir Allah, –
körpə bədən ayıran
zaman oyanaydı kaş!
Əzabımda,
nəşəmdə anam oyanaydı kaş!
Məndən ayrılan mənə
anam olaydım özüm,
körpəcə bir Allahın
ömrünü yürgələyən
zaman olaydım özüm.

1985

XATİRƏ

Birinci Qarabağ
müharibəsinə

Yollar yaralıların
və
şəhid olanların üstündən
adlayıb
yolsuzluğa çıxırdı.
Orada
qaçaqovdu:
Dovşana "qaç",
tazıya "tut"
mesajı
hamını
bir-birinə düşmən etmişdi.
Dirilər
ölülərin çiynində
edam meydanına
daşınırdı.
Hər iki metrdən bir –
torpağın
bətnindəki
məzarların
göz yaşıydı.

2013

YAXŞI Kİ...

Paxıl qonşularım olmayıb heç vaxt,-
qonşularım mənə şəfqətli olub,
mərhəmətli olub, hörmətli olub;
varımdan, yoxumdan xəbər tutublar,
azımdan, çoxumdan xəbər tutublar.
Məndən əvvəl
bilib ehtiyacımı,
kömək əllərini uzadıbdılar.
Paxıl qonşularım olmayıb heç vaxt...
Nəyimə paxıllıq edəydylər ki?!
Ömürdən gileyli,
bəxtdən gileyli,
ümiddən gileyli,
vaxtdan gileyli,
dəbdəbə,
təmtəraq nədir –
bilməyən,
qədri bilinməyən,
qədir bilməyən
inamsız,
imkansız "səadətimə?!."
Canımda,
qanımda ağrıya dönən,
fikrimdə,
hissimdə yağıya dönən,

ömrün yarısında dadıma çatan,

söz olub, səs olub adıma çatan
məhəbbətimə?!
Paxıl qonşularım olmayıb heç vaxt...
Heyhat!..
Paxıl dost-tanışlar arasında mən
paxıl "şəfqətlərin" qurbanı oldum,
paxıl şöhrətlərin dastanı oldum,
paxıl niyyətlərin ünvanı oldum...
Paxıl qonşuıarım olmayıb heç vaxt...
Yaxşı ki, olmaylb
paxıl qonşular...

1985

ÜMİD

Daha itməyəcək adın dilimdən,
Qüssə də çəkilməz dağ olmayacaq.
Qohumun, tanışın, yadın dilində
Tənhalıq üzümə ağ olmayacaq.

1971

QƏRİBLİK

Bəxtin bu yaşda da qapısı bağlı,
Tənhalıq dizini qucub bu evdə.
Bu evə bir baxış sevgisi yağmır,
Saxlanıb bir ömrün köçü bu evdə.

Özündən səvayı gözləyəni yox,
O bu təkliyilə qəribdi, yaddı.
Yalan deyəni yox, düz deyəni yox,
Dünəndə adı yox, bugündə dadı.

1972

***

Ay nənələr, ay analar toxtayin,
Bu qızların sonalanan vaxtıdır.
İgidləri toy mövsümü haqlayıb,
Tərlan kimi səmalanan vaxtıdır.

1976

BU YERDƏ

Müharibələrin viran etdiyi
qədim yaşayış yerlərinə.

Çobanı yox, haraylasın obaşdan,
Dan üzünün nəzəri var bu yerdə.
Bu çəməni yaxşı ara, yaxşı an,
Bir küçənin məzarı var bu yerdə.

Sərilibmiş ayağına kəndinin,
Döngə-döngə qıvrılarmış, çönərmiş.
Yerişiydi, duruşuydu hər tinin,
Poçtalyon tək qapı-qapı dönərmiş.

1974

QƏLBİMİZİN HARAYI

Ürəyim içini yeyib qurtardı,
Ömrüm köçünü yeyib qurtardı,
Yürüşün qıçını yeyib qurtardı,
Yeyib qurtarmadı ömrünü bu qəm.

Görən nə çıxacaq günün içindən?
Bu işıq necə də sönüb içindən...
Taleyin üzümü dönüb içindən? –
Dönüb bəxt gətirən yolların üzü.

Qarsdı bu alovun dilimi bizi,
Qarsdı bu balanın ölümü bizi.
Bu torpaq, bu vətən bölümü bizim
Əlimizi üzdən-gözdən elədi.

Əlimiz haraya yetmək istəyir,
Babək qılıncını öpmək istəyir,
Düşmən hulqumuna keçmək istəyir,
Əlimiz qolundan asılı qalıb.

Qolundan korşalıb ümidlərimiz,
Kövrəlib, yumşalıb ümidlərimiz.
İllərlə yaşanıb ümidlərimiz,
Ölürük,
bizimlə ölmür ki, ölmür.

Lalıq əliqanlı illər önündə,
İradəm çırpınıb inlər önümdə.
Dayanıb iblislər, cinlər önündə
Allahlar, mələklər, günahkar kimi.

Bu çəpər mələyin, hasar allahın
Üzündə-gözündə – kədərim, ahım.
Dayanıb önündə yenə sabahın,
Dünənlər, bugünlər günahkar kimi.

1990

***

Sənə əziyyət oldum
Mən öz həqiqətimlə.
Yüklədim ürəyinə
Qəm öz həqiqətimlə.

Kaş yalan danışaydım,
Yalana alışaydım.
Həm sənlə barışaydım,
Həm öz həqiqətimlə.

Yenə nizamı pozdum,
Yuxumu haqqa yozdum.
Sən yalanla uduzdun,
Mən öz həqiqətimlə.

2000

***

Lap deyək elə mən də
Sən deyən qiyamçıyam.
Yaxşılığa sığalam,
Yamanlığa qamçıyam.

Çığırıb-bağırmayan,
Haraya çağırmayan,
Gözlərimdə durmayan
Ya axın, ya damcıyam.

Şəkər deyil, qənd deyil,
Şükür, yenə bəd deyil.
Ömürdü, sərhəd deyil,
Keçəmməsəm, inciyəm.

2013

***

Yaddaşa aparan cığır,
Özüm baş alıb gedirəm.
Orda bir xatirəm qalıb,
Ona tuş olub gedirəm.

Varımı yoxla bölmüşəm,
Dərdin çiynində gəlmişəm.
Diriyəm, yoxsa ölmüşəm?-
Bir bax, quş olub gedirəm.

Dolu verir, boş aparır,
Axirətə tuş aparır.
Məni necə? Huş aparır,
Yoxsa huş olub gedirəm?!
Bir bax, quş olub gedirəm.

2013

***

Qış qarından boylanar,
İnsan arzularından.
Bir kəlmə söz gəzirəm
Susan arzularımda.

Yalan ola, düz ola,
Ürək açan söz ola.
Ümidim dördgöz ola
Küsən arzularımda.

Yox uzağı, yaxını,
Yeyir gözüm yağını.
Qapımdan ayağını
Kəsən arzularım da.

2012

***

Nə deməyə sözüm qalıb,
Nə susmağa üzüm qalıb.
Arxasınca gözüm qalıb,
Tanrım, məni qaytar sözə.

Baş alıb hara qaçaram?
Mən günüqara qaçaram.
Lap düz divara qaçaram,
Məni elə çapar sözə.

Neynim sözsüz var günümü –
Sədalara kar günümü?!
Sal boynuma dar günümü,
Sürükləyib apar sözə.

2016

MƏN SINIB QALMIŞAM

Bəxtəvər olmadı gördüyüm günlər,
Gözlədiyim gündən soraq gəlmədi.
Götürdü gözümdən örtüyü günlər,
Haqqa işıq tutan çıraq gəlmədi.

Əli boşda qaldı borclu ayların,
Yetirib qolundan tutanı yoxmuş.
Əsəbdən xiffətdən güclü ayların
Dizinə baş qoyub yatanı yoxmuş.

Eh, kim olasıydı? - Elə mən özüm,
Səhəri açıram axşamım kimi.
Eləcə itirən, itirən - özüm,
Tapıram özümü oxşarım kimi.

Sözündən-sovundan deyərsən, mənəm,
Təhər-töhüründən bənzədəmmirəm.
Vallah, elə yerdən-göyəcən mənəm,
Di gəl yerişiylə tən gedəmmirəm.

O məndən öndədi, arzularım tək,
Qaçımmı ardınca yel qanadında?!
Elə taytıyıram ağrılarım tək,
Mən sınıb qalmışam yol qanadında.

2010

DEYİL

Mən elə bilirdim, çəkib qurtardım,
Arzular ömrümü ac qoyan deyil.
Bütün yasaqları keçib qurtardım,
Daha dərd başıma tac qoyan deyil.

Keçdi o qovğalar, - o günlər keçdi,
Qəlbimə vurduğun düyünlər keçdi.
Dalaşmaq...Barışmaq... Oyunlar keçdi,
Kimsə aramıza daş qoyan deyil.

Məni daş bilmişdin, divar, bilmirəm,
Sənə bu töhməti rəva bilmirəm.
Qapalı qəlbində nə var, bilmirəm,
Biliyim bu yolda baş qoyan deyil.

Belə axşamladı qəlbimdə səhər,
Sızladım bir təhər, dözdüm bir təhər.
Mənim xoş günümə qatdığın zəhər
Sənin də gününü xoş qoyan deyil.

1993

***

Kim deyir ki, cansızdı,
soyuqdu üzü onun?-
Ətdi, qandı, sümükdü,
şirin candı bu torpaq.
Kiminsə sümüyünü qırdı
ayağım yenə,
Kiminsə qanı üstdə
laxtalandı bu torpaq.
Kiminləsə toqquşdum adamsayağı
yenə
Kiminsə sonucunda nöqtələndi
bu torpaq.

1987

VAR MƏNİM

Çapıb hərdən xəyalımın atını,
Öz-özümdən ayrılmağım var mənim.
Kül basanda sevincimin odunu
Tüstü-tüstü yayılmağım var mənim.

Bu arzular, bu məqsədlər qəlp imiş,
Bu zirvələr bir ömürdən qəlbimiş.
Zərbə- zərbə çiliklənən qəlbimi
Küsü-küsü ayıltmağım var mənim.

Mən şimşəyin çaxmağı da - qorxulu,
Yolum, qolum - yüz yerindən burxulu.
Bir ümidin sevincindən yıxılıb,
Bir kədərə qayıtmağım var mənim.

Sukuta bax - yaxşılığım anılsa,
Sukuta bax - varlığımda danılsam.
Bircə dəfə səhv eləsəm, yanılsam,
Milyon dəfə sayılmağım var mənim.

Səbr adlı təsəllini saxla, hey,
Qismətini, taleyini yoxla, hey.
Bir ömürü yarıladım "yox"la, hey,–
Dilləndirmə,-
bayılmağım var mənim.

1973

AÇILMIR

Mən niyə bu qədər aciz olmuşam?
Qismət bazarında ucuz olmuşam.
Puç ümid olmuşam, puç iz olmuşam,
Bəxtimdə tutulan dillər açılmır.

Düşüb ayağıma ürəyim elə,
Dörd yana şığıyan küləyəm elə.
Yenə daşdan çıxır çörəyim elə,
Yenə görüşümə qollar açılmır.

Bir toydan, mağardan sədam gəlməyir,
Qalxıram nazlanam, ədam gəlməyir.
Dilənçidən qeyri adam gəlməyir
Qapıma da, Allah, yollar açılmır.

2000

***

Vaxtı əzbərləyirəm,
Dəqiqələr: bir,beş,on
Vaxt keçir saymazyana,
İçərimdə: mən,sən,o.
Heç nəyi unutmayan
Yaddaşım – mənə düşmən,
Heç kimə yovuşmayan
Ürəyim – incik, peşman.
Quşu quşla tutarlar,
Tutulan yaxşı bilir.
Olanlar niyə oldu,-
Quş olan yaxşı bilir.
Quş quşluqdan qovuldu,
Oyunçular dağıldı.
Miyançılar nağıldı.
Bütün dostlar,tanışlar
Üz çevirib getdilər,
Dərdlərimin başına
Duz çevirib getdilər.
Tənhalığın ilgəyin
Keçirdim boğazıma.
Döndüm səbrin, dözümün
Quluna ağasına.

İndi isə bax, budur -
Vaxtı əzbərləyirəm:
Dəqiqələr: bir,beş,on...
Keçir gedir...
Bu da son...

2008

QƏRİB QALA BİLMİRƏM

Bir az axım çöl-çəmənə, çay olum,
Vurub çıxım, təbiətə pay olum.
Gedib-gələn fəsillərə tay olum,
Daha adam olub qala bilmirəm.

Bu əsrdən o əsrə sözəm də,
Həvəsmi var, dolaşam da, gəzəm də?!
Nədəndi bəs baş açmıram özüm də,
Bir yuvada ölüb qala bilmirəm.

Yetiş,deyir eşidənlər,bilənlər,
İstəkləri sənə,mənə bölənlər.
Dolub daşan aşırımlar, bələnlər,
Yanınızda gəlib qala bilmirəm.

Eh,onsuz da ömür yoldu, həyat yol,
Təzə yoldu,köhnə yoldu,boyat yol.
Məni hara sürüyürsən,qayıt,yol,
Nəfəsimi dərib qala bilmirəm.

İmkanıma kimi qara gün çəkir,
Diləyimdən yaxasını gen çəkir.
Baş açmıram,Tanrım,məni kim çəkir,
Bəhsəbəhsdən geri qala bilmirəm.

Aşır daha xurcun olan ömrümü,
Övkəs-övkəs qırçın olan ömrümü.
"Halal" dedim borcum olan ömrümü,
Öz yurdumda qərib qala bilmirəm.

2009

***

Çoxdan çəkib qurtardığım,
çəkilmiş siqaret
kötüyü kimi
zibil qutusuna
atdığım
əzablarım
üzümə qabannağa
başlayıb.
Qaynayan su qabarcıqları kimi
pırt-pırt
pırtlayıb,
sıçradır üzümə-gözümə
giley-güzarını.
Açа bilmirəm
həyatımın
qaranlıq tərəfini, –
qapısı bağlı
zirzəmidi.
Açsam,
bilirəm ki,
canımı
cındıra döndərəcək
didişdirməkdən:
- Nə bilim,
Allahın verdiyi

imkanı

əlinlə kənara itələdin,
öz telyini özün
yazdın,
özün pozdun.
İndi kimi
qınayırsan,
kimi yanıyırsan?!
Utan, utan, utan...
Və utanıram
həmişə o qapıya tərəf
boylananda...

2018

***

Ucalıqdan yoruldun,
Mərtəbəndən düş daha.
Kimsəyə yox gümanın,
Hər tərəfin boş daha.

Xatirələrdən gəlir
Telefon zənglərin də.
Ömür bir tikə imiş
Zamanın çəngəlində.

Yolun düzü düzündü,
Düzlüyünə qısıl gəz.
Qoru, göz bəbəyindi,–
Söz mülkündə üsul gəz.

Döz bir quru budaqda
Quru yarpaq olunca.
Yaşa, dözümlü mələk,
Yaşa, torpaq olunca.

2015

***

Fikir qaxac olub,
Söz qanı – donuq.
Şairin, şeirin
Meydanı – donuq.
Ha söküb - qururuq
Dünyanı, – donuq.
Baş açа bilmirik
Şeytanı işindən.

Baxıb gözümüzdən,
Ağıl mat qalır.
Sinəsinə döyən
Oğul mat qalır.
Sirrinə, sehrinə
Nağıl mat qalır.
Yoxsa müqəvvayıq
Meydan içində.

Haqqına deyəndə –
biz nəkarəyik?!
Uzağı bir tamah,
Nəfs şikarıyıq.
Nə əlsiz-ayaqsız,
Nə biçarəyik.
Di gəl ki, borcluyuq
Bir can üçün də.

2008

BƏSDİR

Əllərim, ağlama, gözüm dolusu
Həsrəti, həsədi ovudammıram.
İzlərim, qayıt gəl, ümid yolusan,
Qəlbimi bu yoldan soyudammıram.

Şəhərdən gəlirsən, kənddən gəlirsən,
Gəl, məni özünlə yığışdır gətir.
Sən də bir növ şəhid; dərddən gəlirsən,
Yığışdır bu yoldan yoxuşu, gətir.

O doğma sevginin kölgəsi – ögey,
Səbrimin yoxuşa dözdüyü bəsdir.
Qayıt gəl, əməllər ölkəsi – ögey,
Sənə ümid göyü, söz göyü bəsdir.

1980

OLA

Xeyir qapını döyə,
açıb şərə düşəsən.
Durduğun ucaqlıqdan
aşıb yerə düşəsən.
Təpə olduğun yerdə
çöküb dərə düşəsən,
səni bu əngəllərdən
çəkib ayıran ola.

Elə "döz-döz" deyələr, –
dözümdən yıxılasan!
Sənə söz verənlərin
sözündən yıxılasan.
Bir ümid doğrulunca
yüzündən yıxılasan.
Arsız giley-güzarda
ömür-gün bayram ola.

Elə rahatlığının
əllərini ovasan.
Başına fikir qona,
tez-tələsik qovasan.
Bir də ayılasan ki,-
beynin – düşmən yuvası.
Bu mələk xislətinə
dörd yanın heyran ola.

2018

***

Varağını qatlama,
Yarağını seç günün.
Sıyır söz qılıncını,
Qulağını deş günün.

Gəzmə taxça-boxçasın,
Yığsın zərin, axçasın.
Gözlərini oxşasın
Bu dünyanın beş günü.

Bir güllə gəlməz başa,
Qılıncını çal daşa.
Sən də bir bahar yaşa
Ömrünün bu qış günü.

2009

***

Ağız dolusu susmaq,
göz dolusu danışmaq,
qulaq dolusu çığırmaq,
söz dolusu eşitmək...
Hamısına nəfəs vermək!
Hamısını ayıltmaq.
Oyatmaq hamısını!.

2016

***

Qarın sümüklərini
qıra-qıra,
köntöy addımlarıyla
yıxıla-dura,
qolunun-qıçının,
belinin ağrılarına
yalvara-yalvara,
ömrünün qış yolunda
dözümü
ayaqlayır
bu qoca.
Kölgəsi – ayaqlarının altında;
özünü ayaqlayır
bu qoca.

2016

XATİRƏ

Bu hiddət vulkanı,
qəm cəhənnəmi,
Bu nifrət tufanı əzəcək məni.
Ölümüm – gözümdə;mən
cəhənnəmə,
Şeirimin ölümü kəsəcək məni.

Yoxdur məndən sonra arxa
duranı,
Mən – mənli yetiməm, o isə –
mənsiz.
Mənim tək seçəmmir ağı-
qaranı,
Mənim tək dostsuzdur,
mən tək – düşmənsiz;

Dostu ağlayardı yetimliyinə,
Düşməni söyməklə yada
salardı.
Mənim sağlığımla yaşayır
yenə,
Yaşayım bir onun xətrinə
barı.

1981

BU DOĞMALIQ,
BU YADLIQ

Hansı dövrün hissidir,
Hansı əsrin odudur?
Yaxşımıdır, pismidir?–
Gah kövrək bir budaqdır,
Gah basılmaz ordudur,
Gah yaxın, gah uzaqdır,
Gah soyuq, gah istidir
Bu doğmalıq, bu yadlıq.

Hansı dövrün hissidir,
Hansı əsrin odudur
Bu doğmalıq,
Bu yadlıq?!
Gah məni məndən edər,
Gah səni də mən edər
Bu doğmalıq,
Bu yadlıq.

1974

AZƏRİ OĞLU

Yurdun igidləri adından

Mən azəri oğluyam,
Köküm torpağa bağlı.
Nəhəng palıdlar kimi
Gövdəm qollu-budaqlı.

Sürətim Qıratımın
Nalında qalıb mənim.
Pəncəmsə aslanların
Yalında qalıb mənim.

Köksümdə sınanıbdı
Mənim odlu qılınclar.
Qaşlarım arasında
Güllə nişanəsi var.

Cavanşirim gedərkən
Adını mənə vermiş.
Babəkim ürəyinin
Odunu mənə vermiş.

Baxışımdakı atəş
Koroğludan yadigar.
Qəlbimdəsə Nəbimin
Haqq-ədalət eşqi var.

Səsim şəlalələrin
Gur səsində qalıbdı.
Barmağımın izləri
Misri qılınclarımın
Dəstəsində qalıbdı.

Vuruşlarda tarixin
Müzəffər səsi mənəm.
Dövrün raket sürəti,
Titan qüvvəsi mənəm.

Polad sinəm altında
Sevib-sevilən zaman
Ürəyim çox incədir,
Yarımın qəlbincədir.

Coşub qəzəblənəndə
Tufanı andırıram.
Ədalətin yolunda
Əbədi məşəl kimi
Qəlbimi yandırıram.
Sözlərimdə doğruyam,
Mən azəri oğluyam.

Vicdan adına min-min
Oyundan çıxanları,

Vicdansız vicdanları
Gərək öz iradəmlə
Qıyma-qıyma doğrayam.
Mən azəri oğluyam.

1969

GÜLƏ-GÜLƏ

Əcəb günlər idi; heyiflər olsun,
Getdi əlimdən yar gülə-gülə.
Donduq yalqızlığın qara qışında,
Yağdı üstümüzə qar gülə-gülə.

Həyat uca dağmı, yoxsa dərəmi?
Nifrət bizlərəmi, dönüklərəmi?
Sazım dilə tutdu "Yanıq Kərəmi",
Gəldi harayına tar gülə- gülə.

Tökülsün üstümə qəmi dünyanın,
Didsin varlığımı cəmi dünyanın,
Qoy dolsun gözümə nəmi dünyanın,
Girməsin qəlbimə xar gülə-gülə.

Eşit bu ağrını dərk eləyəndən,
Dosta ürək açıb, ərk eləyəndən;
Tərlan oylağını tərk eləyəndən
Xoşgünə [1] "yar" deyir sar gülə-gülə.

1971

[1] 1970-ci illərdəki təxəllüsüm

***

Ürəyim ahdan üzülüb,
Bir qart günahdan üzülüb.
Əlim Allahdan üzülüb,
Gedirəm hara, bilmirəm.

Qolaylandım qışdan çıxam,–
Bir mən oldum başdan çıxan.
Bu çörəyi daşdan çıxan
Ömrü apara bilmirəm.

1972

***

Bu dərddən də
qaçıb çıxdım.
Bağlı qapı
açıb çıxdım.
Lap qismətdən
acıq çıxdım;
Səbrim,
ömür əmanəti!..

2009

***

Mən də vuruldum bu pula,
Döndüm qarşısında qula.
Məni saldığı bu yola
Düşüb də ayaq döyürəm.

2000

***

Tale deyil hər yazılan,
Xeyir olmaz şər yazılan.
Daşındakı zər yazılar
Alnına yazılmayacaq.

2000

***

Qəlbini gözündən oğurladılar,
Dilini sözündən oğurladılar,
Özünü özündən oğurladılar,
Görən nəyi qaldı,
görən nə qaldı?

Sevdi şan-şöhrətlə qucaqlaşmağı,
Belə ucalmaq da enməyi idi.
Özünün özündən uzaqlaşmağı
Ayılıb özünə dönməyi idi.

1985

YENİ İL

On gündən sonra
Yeni ildir, –
il "yeniləşir"...
Amma,
təkcə il,
ayrı – heç nə, əslinə qalsa.
O, isə bir il də köhnələcək,
bir il də qocalacaq.
Qocalıq, köhnəlik yeniliyi gəlir
onunçun
on gündən sonra.
Hamı hazırlaşır
Yeni ili qarşılamağa.
Ən çox da
uşaqlar.
"Yolka" şənlikləri
elə böyükləri də
uşaqlaşdırır.

O bilir,
bilir ki, Yeni il
onun üçün sevinc deyil.
Qəm də deyil.
Elə-belə;
adi günlərdən fərqi –

stol üstündə "Şampan" şərabı –,

nəyinə lazım?!
O ki içmir.
Quzu ətindən şişlik –,
nəyinə lazım?!
Ona qoyun əti olmaz.
Televizorda baş alıb gedən
çal-çağır...
Daha bu lap ağ oldu;
məgər o rok həvəskarıdır?!
Biş-düş edəcək,
bütün günü – ora-bura:
bazarlıq, filan.
Axşama – yorğunluq, halsızlıq...
Bir yandan da heç cür
beyninə batmayan
çal-çağır.
Sonra, adi vaxt:
Şam yeməyi.
İl təzələnməmiş
yıxılıb yatacaq.
Bir də o biri il oyanacaq.
Amma qonşunun
çal-çağırı
yuxusuna da yol tapacaq.

Bu çal-çağır
o çal-çağırdan deyil ki –,
oyaq qala.
Otura ta sonadək –
Zeynəb ekranda görünənədək
gözləyə.
Zeynəbi dinləyə,
ləzzət ala
və yıxılıb yata.
Yatdı–
"dur" deyəni yoxdu.
"Mənə su" deyəni yoxdu.
"Pəpə" deyəni yoxdu.
Yoxdu "dur" deyəni.
Ötən il də yox idi,
o biri il də.
Gələn il də olmayacaq.
Bu gələn il təzədi,
amma heç nə təzələnməyəcək,
onun üçün
təkcə rəqəmdən başqa.
"Novruz" isə...
"Novruz" onu yatmağa qoymur;
səhərədək
qapı döyülür.
"Novruz" – yeni gündür,

yeni ruzudur.
Hər şey təzələnir
Novruzda,
hər şey;
təbiət təzələnir,
ab-hava təzələnir.
Damarda qan,
canda ruh təzələnir.
İndi isə...
On gündən sonra
Təzə ildir.
Fəqət, heç nə təzələnmir,
rəqəmdən başqa.

2003

YOXDU HARAYIMDA

Yoxdu harayımda bu dağlar daha,
Susur musiqimdə bulaqlar daha,
Bu ellər, obalar, oymaqlar daha
Məni səsləməyir, mənə yaz demir.

2000

ƏBƏDİYYƏT

Daha boyum artmaz,
çəkim çoxalmaz.
Əllərim kiçilər
ümidim kimi.
Ömrüm
arzularım təki çoxalmaz.
Gözlərim kiçilər,
qəlbim kiçilər,
hövsələm daralar,
sıxılar daha.
Sıxılıb-sıxılıb,
bu qalan ömrə,
bu xırdaca boya
yığılar daha.
Gündə bir azcana,
gündə bir zərrə
əriyib itərəm:
şeirə çıxaram,
elmə çıxaram,
fikrə çıxaram.
Əriyə-əriyə
gündə bir zərrə
çevrilərəm
fikrə,
şeirə,
elmə...

1984

***

Qaçdım o meydandan ki,
mənə dar gəlirdi.
Qaçdım o oyundan ki,
oyundan çox, gerçək idi.
Qaçdım o sevincdən ki,
sonu yox idi.
Qaçdım o arzudan ki,
daim məndən arxada
qalırdı.
Qaçdım o düşməndən ki,
özünü dost kimi göstərirdi.
Qaçdım o dostdan ki,
düşmənçiliyi hər addımda
məndən danışırdı.
Daha qaçmağa nə yer qalıb,
nə də adam...
Pah atonna!

2017

PAYIMIZLA SUSURUQ

Biz öz halımıza yanıb çox zaman
Özgəyə yanmağı yadırğayırıq.
Bir özgə yükünün ağırlığından
Xilas olmağı da səadət dolu
Ömür sayırıq.

Başımızı elə qatırlar bizim,
Qulağımız dolur öz hayımızla.
Üzünə çımxırıb iradəmizin,
Susmalı oluruq bir göz əvəzi –
Köz payımızla.

1969

DALĞA VƏ MƏN

Sən də dalğasan, mən də.
Sən dənizin üzündə dalğasan,
Mən həyatın düzündə dalğayam.
Sən dənizin sahilinə,
Mən isə ömrün sahilinə tələsirəm.
Səni külək qovur,
Mənisə zaman.
Mən də dalğayam.
Sən də dalğasan.

1966

ÜRƏKLƏ POZULUB SÖZ İLQARIMIZ

Ürəklə pozulub söz ilqarımız,
Mən ondan, o məndən umub-küsürük.
O məndən günahkar, mən ondan qəliz,
O məndən səbatsız, mən ondan çürük.

O məndən ağılsız, mən ondan dəli,
O məndən cürətsiz, mən ondan zəif.
O məndən ümidsiz, mən ondan zəlil,
O məndən qüsurlu, mən ondan mayıf.

Tökülür üst-üstə planlarımız, –
Dünəndən bugünə,
bugündən sübhə.
Elə çoxalıb ki yalanlarımız,
O mənə – xəyanət,
mən ona – şübhə.

Əzabım – qəmimdir, qəmim – əzabım,
Mən əzab yeyirəm, osa qəm yeyir.
Nə ona, nə buna qalmamış tabım,
"Mənə güzəşt elə, vaxt ayır",- deyir.

1974

HƏYAT YOLU

Sənətə diplom aldı,
Həyata diplom aldı.
Özü də gözləmədən
Birdən-birə ucaldı.
Çaldığı qələbəni
Ucuz bildi özünə.
Onunçun bu ucalıq
Görünmədi gözünə.
Vicdanı onu əzdi.
Səadət əlindəykən
O, səadətini gəzdi.
Gəzdi, tapmadı, fəqət,
Əlindəydi səadət...
Onu qorumaq əzmi
Əsl səadət imiş...
Qorunmayan nəsnəni
İtirmək adət imiş...
Xəbis bir əl uzanıb
Ucaldığı zirvənin
Mehvərini dağıtdı.
Zərbə qəfil, tor qəliz;
Onu yaman ağrıtdı!:
Yıxıldı,
durdu özü.
Lap həyatın dibindən

Pillə-pillə qalxmaqda

Keçdi gecə- gündüzü.
İllər ötdü birbəbir,
Bir də baxıb gördü ki,
Əvvəlki zirvədədir.
Sevinclə, iftixarla
Silib alın tərini,
Nəfəsini dərdi o.
Səadət meyvəsini
Həyat yollarındakı
Zəhmətindən dərdi o.

1970

BACILARIM

Kolxoz tarlalarında mis rəngi
alan qadınlarımıza

Bu ocağın istisi
yandıracaqdır sizi.
Bu torpağın işığı
qardan ağdır, bacılarım.

Qardan ağdır üzünüz,
qardan ağdır gününüz.
Güzgülər riyakardır,
bacılarım.
Güzgülərə
inanmayın.
Dadı-duzu,
hikməti var
bu üzü qardan ağ
torpağın, –
torpağa inanın.
Bir də
şümşaddan
polada
yol keçən
qollarınıza.
Bir də

çöhrənizdə misləşən

Günəşə.
Siz zamanın
nəbzisiniz
Yerin
əmək cazibəsində.
Siz zamanın
Özüsünüz, -
özünüzə
inanın,
bacılarım, –
şücaətilə
cəsarəti də,
dözümü də,
inadı da,
əzmi də ötənlərim.
Bu torpağın işığında
bu ocağın yanğısını
əllərivlə öpənlərim,
çöhrəsiylə öpənlərim.

1973

***

Sərkərdə xəyalım, atlı xəyalım
Qıpçaq çöllərini daradı keçdi.
Qımızdan, qurutdan dadlı xəyalım
Dunayı adladı, Arazı keçdi.

1970

YUXUDA DEYİLƏNLƏR

Hər şey var
Stolumun üstündə,
Təkcə şeyrdən başqa.
Qapımı
döyməyən qalmadı,
Təkcə xeyirdən başqa.

***

Bu qələmi düzəldən,
Səni it qapsın elə.
İtiyin dünyanı gəzib
Bu qələmi tapsın elə.

***

Duman, özünü
asmağa tələsmə.
Qarşıda səni
dağ gözləyir.

2000

DAĞLAR – YOLLAR

Araz çayı boyunca sıralanan dağlara

Bax bu gözəlliyə, alışsın gözün,
Çökər bəbəyinə rənglərin ritmi.
Kim bu nəhəngləri yan-yana düzüb
Həsrətin, hicranın heykəli kimi?

Düşsən bir cığırın maral izinə,
Dağlar bir- birinə ötürər səni.
Boylanıb dünyaya baxmaq istəsən,
Zirvələr göz üstə götürər səni.

Harayı, həniri udmuşmu sükut?!
Gədiklər - marığa yatan pələngdir.
Zirvədən yuxarı bir şırım bulud
Qartal qanadından qalan lələkdir.

Çəkilib dağ səfi – qarşıda hasar.
Dayanıb sərhəddə – əmrə müntəzir.
Düşüb ayağına yol da, Araz da, –
Araz da tələsir, yol da tələsir.

1970

***

Sabaha məhəbbəti
qəlbimdən çıxartmışam.
Dünənin arxasınca
bir qara daş atmışam.
Əlim başımın altda,
elə rahat yatmışam...
Rahatlıq belə olmur.

1985

***

Heç nə bizi
qorxumuzun üzünə
çımxırda bilməz.
İstəsək də,
istəməsək də,
içimizdəki dovşanı
əzizləyib,
gizləyirik qorxularımızı.
Gözümüzün ağında–
lərzəyə gəlmiş
Dünya;
Adamları –
dəyənəyə vurğun.
Əlimizi
üzümüzdən götürsək,
dəyənəklik işlərimizi
içimizdən
qovub
sala bilərik
küçələrə...

2011

GÖYLƏ ZARAFAT

Bu göyü başımdan atacaq idim,
Ömrümdən, yaşımdan atacaq idim.
Yayımdan, qışımdan atacaq idim,
Heyif, üfüqünə əlim yetmədi.

Dumduru, qupquru göy idi bu göy,
Bir şəhər dolusu ev idi bu göy.
Elə bil tilsimdi, div idi bu göy,
Necə yol tutdumsa, yolum yetmədi.

Bu göyün payızlı toyunu geydim,
Qışını soyundum, yayını geydim.
Gecələr öz ulduz payımı geydim,
Gündüzlər Ayına qolum yetmədi.

Yarı zarafatdı, yarısı gerçək,
Bu göyün tanrısı vardısa, gerçək,
Sənlə, onunla yardısa, gerçək,
Niyə ünvanına dilim yetmədi?

Bu göyü başımdan atacaq idim,
Ömrümdən, yaşımdan atacaq idim,
Yayımdan, qışımdan atacaq idim,
Heyif, üfüqünə əlim yetmədi.

1988

ÖZÜNÜ

Qəzadan, qədərdən xəbərsiz kimi,
Bu vaxt başım üstdən asdı özünü.
Məni quylamağa quyu tapmadı,
Dişi, dırnağıyla qazdı özünü.

Məni sallamağa quyu tapmadı,
Aradı, axtardı, göyü tapmadı.
Bu boyda dünyada söyüd tapmadı,
Durub budağından kəsdi özünü.

Bu boyda məkanda söyüd tapmadı,
Aradı eşiyi, evi, tapmadı.
Ona şam yandıran divi tapmadı,
Elə qaranlıqda gəzdi özünü.

Alışıb yanırmış içində elə,
Hiddəti boy verir işindən elə,
Qurtara bilmədim dişindən elə,
Salıb ayağına, əzdi özünü.
Bu vaxt başım üstdən asdı özünü.

1975

***

Çağır məni ayağına,
Heç nədən küsüm, gəlməyim.
Bu dərdi də gəl üstünə,
Mən dərdə üstün gəlməyim.

Ümidlərim yola çıxsın,
Başın-gözün yola çıxsın.
Elə yanım, elə çıxsın
Təpəmdən tüstüm, gəlməyim.

Kəsim-kəsim, dilim-dilim...
Bu tikəni kimlə bölüm?!
Sənsiz keçən günlə ölüm
Gözümü örtsün, gəlməyim.

2007

BU YAZ YAĞIŞLARI

Uzaqdan başladı
bu yaz yağışları.
Göyün ulduzlarından
soyuq,
qızılı ışıq şüaları tək
sızıb gəldi.
Günü-günə
düzüb gəldi.
Belə başladı bu yaz yağişları.
Bütün yayı, payızı
Axdı dünyaya,
torpağa,
ağaclara,
taxtapuşlara,
adamlara.
Canımda qışladı
bu yaz yağişları.
Yaza çıxdı canımda
bu yağışlar.
Çıxdı ki,
yazda yağışa dönüm –
çıxım canından
ev-eşiyin,
isti paltarın.
Yağış olum –

bahar küçəsinin başından

üzüaşağı
süzülüm gəlim.
Bütün olmuşları,
olacaqları
yuyum,
təmizləyim,
dünyanın taxçasına
düzüm gəlim.
Gəlim üzüaşağı, -
ömrün təkinə, -
tək-təkinə.
Ah, bu yaz yağişları!..

1982

Dilsiz dostlarımıza

***

Pişiklə dostluq edən
balaca Çiçəyə

Pişik gözəl pişikdir,
Yəqin dəcəl pişikdir.
Gözlərə bax, nə boyda!
Yəqin cırmaq yeri var
Kresloda, oboyda.
Ona danışmaq öyrət,
Nitqə alışmaq öyrət,
Gülmək, ağlamaq öyrət,
Ədəb saxlamaq öyrət.
Alış, özün də, alış
"Mıy-mıyı"na, "puff"una.
Tüklərini qabartsa,
Düşmə qəti xofuna.
Bir körpə qılığı var
Pişiyin də canında.
Oxşa, nazla, tərtəmiz
Saxla daim yanında.
Qoyma tez böyüməyə,
Vaxtı dayandır bir az.
Öz pişik ləhcəsiylə
Onu əyləndir bir az.

2017

PİŞİK

Bu gözəl gündə yoxa çıxan pişik,
Kimin əlində qalıb yaxan, pişik?

Gündüzlər – təntənəsi, dəbdəbəsi,
Gecə gözündən işıq axan pişik.

Ha gəzib axtarıram, yox sorağın,
İnsaf et, qayıt mənə, a xan pişik.

Görən kim quyruğunu tapdaladı?
Yox oldu pəncərədən baxan pişik.

Düşünürdüm ki, daha əcdahasan,
A bir vaxt kölgəsindən qorxan pişik.

Bilirəm, yan-yörəndə naz-buz edir
O qara, o düyməgöz Məstan pişik.

Getmisən, bir insaf et, xəbər göndər,
De görüm gələcəksən haçan, pişik?

2013

PİŞİK DEYİL, BƏLADI

Qulaqları yepyekə,
Quyruğu uzun pişik,
İtlərin, pişiklərin
Aslanı bizim pişik.
Bir qəfıl səs eşitcək
Səksənir bizim pişik.
Bayırda yağış yağa,
Qorxudan içəridə
İslanır bizim pişik.
Qızılım, zərim pişik,
Təzə əsərim pişik.
Dördayaqlı olsa da,
İkiayaqla gəzir.
Əllərində tutduğu
Kağız "bayraq"la gəzir.
Hey hoppanır, hey qaçır,
Coşur, mayallaq aşır.
Qaşı-gözü oynayır.
Biz heç nə eləmirik,
Vallah, özü oynayır.
Görün hara dırmaşır!
Dər-divara dırmaşır.
Bəlkə azdırım bunu,
Səhvə yozdurum bunu.
Yaman dəcəl pişikdi,

Amma gözəl pişikdi.

Ulular yaxşı deyib: -
"Pişik ala boyundu,
İşi tamam oyundu".
Oyundu elə bu da,
Gərək bir az qorxudam.
Yaman qonaqsevəndi,
Təknə-tabaq sevəndi.
Qab-qacağa meyli var,
Hər bucağa meyli var.
Bir az üzüyoladı,
Pişik deyil,
bəladı

2013

PİŞİYİN BALASINA ÖYÜDÜ

Əzizim, əkizım, ey iki gözüm,
Yerişim, duruşum, ey iti dişim,
Ey haça qulağım, ey eşmə bığım,
Ayağım, dırnağıın, mələş quyruğum,
Əlini südümdən üzəndən bəri
Görürəm, eşirsən zibillikləri.
Eşirsən – qırıntı, ya siçan üçün...
Var ol, – zirəkliyin, səriştən üçün!
Ey pilə quyruqlum, ey pilə üzlüm,
Ey hiyiə quyruqlum, ey gilə gözlüm,
Zibillik eşməvin məsləhət deyil,
Zibilin zibili mənfəət deyil.
Bilirəm, bir sual tükünü didir;
Nə bilim, içkinin odu qalmayıb.
Heç nəyin əvvəlki adı qalmayıb.
Ey haça qulaqlım, budur, eşit bil,-
O qədər su içib, dərman içib ki,
İndi siçanın da dadı qalmayıb.
Bunları bir kimsə öyrədən deyil, –
Siçan pusmağın da qeyrətdən deyil.
Qanadın yoxsa da,
uçmağı öyrən.
Göylə gedənləri pusmağı öyrən.
Ancaq sən indidən hücuma keçmə, –
Sabahkı qırğısa bugünkü sərçə,

Hələ sərçədən də özünü gözlə,

Xırda zərbədən də özümü gözlə.
Əzizim, əkizim, ey iki gözüm,
Fəndinlə, felinlə, dadlı dilinlə
Sən mənim özümsən, -
özümü gözlə.

1999

PİŞİK VƏ DÜKANÇI

Pişim-pişim pişana,
Gedib girib dükana.
Dükançı hay-küy salıb,
Pişiyim məətəl qalıb:
Yediyi-içdiyi yox,
Künc-bucaq eşdiyi yox.
Südü, yağı, qaymağı
Pişiyim heç saymadı.
Dükançının sərvəti: –
Hər canlıdan var əti;
Ceyran əti, mal əti,
Toyuq əti, at əti...
Pişiyin nə borcuna!
Dükançı, dükanın var,
Künclərdə siçanın var.
Onu ki, satammazsan,
Ətə də qatammazsan.
Pişik siçan axtarır.
Aç qaxsımış anbarı,
Qoy arasın, izləsin,
Anbarı təmizləsin.

2012

TÜLKÜNÜN MƏKTUBU

1969-cu ildə Naxçıvanda
Mənimlə bağlı verilən
bir haqsız qərara

"Salam, a çaqqal bacı,
Təcrübəmin möhtacı.
Göndərdiyin məktuba
Bu gün cavab yazıram.
Sənə öz təcrübəmi
Öyrətməyə hazıram:
Bir gün itlə dostlaşıb
Daraşdım toyuqlara.
Hərdən itə də verdim
Yediyimdən bir para.
Yağ içində böyrək tək
Yamanca dolanırdıq.
Elə qudurmuşduq ki,
Son vaxtlar nə çəkinir,
Nə də daldalanırdıq.
Bir gün xəbər çıxdı ki,
Sahib qovubdur iti,
Məni də bərk axtarır.
Canımı təşviş sarır.
Oğrunu tutmaq üçün
Qoyunu yollayıbdır.

Bir iş görə bilməsə,

Qoyun üçün ayıbdı.
Quyruğumun izinə
Yaman düşmüşdü qoyun.

Dilə tutub dələni
Dedim: "Toyuqlar səni
Yamanca xoşlayıbdır.
Onlara baş çəkməsən,
Sənincin çox ayıbdır".
Bığını eşə-eşə
dələ gedir görüşə.
Bu cəsur lələşin də
Qoyuna həmin saat
Bir ananim göndərir:
"Bəs, başqa işləri at",
Şələquyruq hindədir.
Qoyun cumub əlbəəl
Yazıq dələciyəzin
Yapışır quyruğundan.
Məhkəmədə bu "gözəl"
Başlayır ki, ay aman,
Gəlin, inanın mənə, -
Mən düzünü deyənəm.
Bir de görüm, a qardaş,

Heç mən toyuq yeyənəm?!
Deyirlər: - Sus, ay nadan,

Yesən də, yeməsən də,
Burda sən tutulmusan.
İndisə düz, ya yalan
Desən də, deməsən də,
Sübut var əlimizdə:
Dələ, oğru olmusan.
Bəli, a çaqqal bacı,
"Oğru" tutulan gündən
Asudə gəzirəm mən.
Bilirsən, gecə-gündüz
Çox hinləri yarmışam.
Quyruq ələ vermədən
Yaxşımı qurtarmışam?!

1969

***

Pələng baba tülkücüyə
Tərif deyib xəta etdi.
Tülkücük də qaçıb ona
Bir cüt busə əta etdi.

Gicəlləndi qoca pələng,
Azca qaldı uça pələng.
Qururunu uca pələng
Tülkücüyə fəda etdi.

Bu pələngin izi deyil,
Pəncəsinin tozu deyil.
Bu səhvi də özü deyil
İçindəki qida etdi.

2015

QORİLLA LAYLASI

Layla,
cəngəllik şıltağım.
Layla.
Layla,
tüklü çılpağım,
layla.
Layla belimə çəkilən
qurşağım,
layla.
Layla,
yaddaşımın
yaşıl meşəsi.
Layla,
əcdadımın
işi, peşəsi.
Layla,
lianaların
darıxdığı
yellənciyim.

Layla,
gəncliyim,
dəcəlliyim,
layla...

1978

Dünya ədəbiyyatından tərcümələr

Akif İnan
(Türkiyə)

DƏVƏT

Əllərim fikrimin göylərindədir,
Cızıram könlümün xəritəsini.
O çiçək ulduzlar – daşım, kərpicim, -
Ayın sinəsində tikim qəsrimi.

Axşamlar səfərə çıxıram elə,
Özümdən içimin məmləkətinə.
Ətrafım – sevincdən, qürurdan halə,
Ürəyim şam tutur şan-şöhrətimə.

Ey ürək, mənimlə düz dolan artıq,
Biz ki o dünyanın yurddaşlarıyıq.
Yetir, zülmətin də əllərini sıx.
Beş günlük, on günlük yurd yaşarıyıq.

Mehmet Nuri Parmaqsız
(Türkiyə)

MƏNİ YALQIZ BURAXIN

Düşmüşəm bir quyuya, çıxaranım yox mənim,
Qarşımda görsəm səni, o an titrər bədənim.
Əlimə fiirsət düşə, bir sözlə yox edərəm,
Bitsin artıq bu axın,
Məni yalqız buraxın.

Sizə çatdırılanlar, inanın ki, nağıldı,
Dəryasında üzdüyüm çat-çat oldu, dağıldı.
Qopan fırtına idi, - ayrılığı çağırdı,
Ölümüm zatən yaxın,
Məni yalqız buraxın.

Məndən eşqi sormayın, mən eşqdən nə anladım!
Qapında çox gözlədim, nifrət o zamanlara.
Tanıyınca mən səni, düşdüm min gümanlara.
Bu eşq də sona varsın,
Məni yalqız buraxın.

Sükutun qıfıl oldu, qırılsa da qanadım,
Gözləməzdim ki, məndən sənə yaxındır yadım.
Yazdığım bu şeirdə heyif ki, yaşar adın,
Eşqi yandırıb-yaxır,
Məni yalqız buraxın.

Eminə Sevinc Öksüzoğlu
(Türkiyə)

TÜRK QƏHVƏSİNİN DADI

Sənsiz fəsillər də ötməz, adlamaz
Sənsiz
ürəyimdə hər fəsil – ayaz.
Bu öksüz taledən gündüzlər keçər,
Mənsə – sənsizliklə dolu bir gecə.

Sabaha çıxmaz ki, yalan yuxular,
Yorğun nağıllar da qəlbimdə sirdir.
Adına yazdığım şeiri oxuma,
Oxuma o gizli sevdamı bir də.

Sən adda sevdalar sardı ruhumu,
Sənə bağlı sevdam - qanlı bir yara.
Ürəyim sirdaşsız quşdur, oxumur,
Gəl, ya sevgilim ol, ya həsrət ara.

Üzümdə - sevdalı, gülüşlü riya,
Hərcayi keçmişin odu qalıbdır.
Dilimdə ekzotik bir melodiya,
Bir də içdiyimiz "Türk qəhvəsinin"
dadı qalıbdır.

Tofiq Fikrət
(Türkiyə)

MAHNIYA SÖZ

Artıq yetişmiş zaman, bəsdir, qalxın ayağa,
Qoy hər kəs öz yolınu işıqlandırsın daha.
Pisliyə, haqsızlığa ədalət qalib gələr,
Yol verin azadlığa, gələn nurlu sabaha.

Təhqirə, əsarətə biz daha dözdük, yetər!
Ədalət məşəlindən qoy işıq alsın bəşər!
Qoy gələcək həqiqət nurlatsın təkcə bizi,
İztirabın, təhqirin tüstü tək itsin izi.

Pisliyə, haqsızlığa bir daha yol verməyək!
Biz əbədi sevincə qərq edək qəlbimizi.
Zülməti,əsarəti sökün, dağıdın, yetər!
Məhəbbət məşəlindən qoy işıq alsın bəşər!

Nəsrin Erbil
(İraq)

MAVİ

Səni unutmaq üçün
Xəyallarımdan qanad taxıb gedirəm.
Di gəl, mavi insanlarla dolu
Bir yerə çatıram.
Bihuş oluram,
Dərdimi onlara açıram,
Acıyırlar.
Mavi-mavi ovudurlar məni.
Allahın mavi olduğuna
İnanan uşaqlara
Nağıllar deyirlər.
Dinləyirlər
Mavicə düşüncələr içində.
Mavilikdən pay umurlar.
Mənsə bütün mavilikləri
Səndə tapıram.

Yavuz Bülənd Bakilər
(Türkiyə)

GECƏ YARISINDA
BİR YALQIZ ADAM

Bu qərib, kimsəsiz, bəxtsiz şəhərdə
Sevməzdin hər axşam mey içənləri.
Və kimsə görməzdi o zaman sənlə
İçimdə çəkişən, döyüşənləri.

Bir qız sevdin onda şeirlər qədər,
Miniatür görkəmi zərif və incə.
İçin-için yandım yaxıldım hədər,
Nazlı görüşünə gizli gedincə.

İndi dərdlərimi dağıda bilmir
Qəm kimi çəkdiyim siqarlar belə.
Ağrımı, acımı sağalda bilmir
Dolaşdığım yollar, axarlar belə.

Bütün sevdiklərim qeyb olub getdi,
Ömrümdən tənhalıq, təklik barındı.
Ağlayıb, sıtqayan çocuqıar kimi
Yalqızlıq böyüdü baxışlarımda.

Əvvəllər belə də deyildim axı,
İndi mahnılarım yandırıb yaxar.
Bir zülmət otağa sızılıb axan
Odlu göz yaşından qeyri kimim var?

Eminə Sevinc Öksüzoğlu
(Türkiyə)

***

Bir qapqara tül çəkili – hər gecə,
Bu şəhərin gün-güzarı başqadır.
Fəsil-fəsil yazı, yayı – bilməcə,
Adamları, gülüzarı başqadır.

Üz-gözünə qara-qorxu çərtilib,
Bir sərgərdan qancıq imiş gecələr.
Bir quruca adı qalıb mərdliyin,
Məhəbbətdən alver gedir gecələr.

Sütül qızlar – küçələrin oynaşı,
Həyat, varlıq pulmuş elə, sən demə.
Namus üstdə qurban gedən dədələr,
Ah, yanmayın, utanmayın bu günə.

Dediyiniz abır-həya bəs hanı?
İmanlıya qiymət verən kəs hanı?
İştə, bumu mizanlar?!

Mehmet Nuri Parmaqsız
(Türkiyə)

SƏNDƏN BAŞQASI YALAN

Bütün varlığım ilə könlümü verdim sənə,
Səndən başqası yalan, anla bunu, bil bunu.
Eşqə xəyanət çətin, hələ mənim gözümdə
Səndən başqası yalan, anla bunu, bil bunu.

Hər an səndəyəm, gözəl, yoxluğuma sıxılma,
Dəvə durub dam yıxar, sən eşqindən yıxılma.
Məni eşqində boğub, başqasına sığınma,
Səndən başqası yalan, anla bunu, bil bunu.

Şeirdə nə desəm də, eşqimi anlatmaram,
Mənliyimə hopmusan, səni məndən atmaram.
Nə qədər can atsam da, gül üzünə çatmaram,
Səndən başqası yalan, anla bunu, bil bunu.

Bir zamanlar könlümə aşiq olma deyəndim,
Bu duyğunu, sevgini, bil ki, sənlə yendim.
Sənin sədaqətindən səni sevmək öyrəndim,
Səndən başqası yalan, anla bunu, bil bunu.

Sevgin məndə inan ki, bir şair oyatmışdır,
Ayrılığın qəlbimdə həsrət odu çatmışdır.
Eşqin məni bir sevda dəryasına atmışdır,
Səndən başqası yalan, anla bunu, bil bunu.

Bir desənə, mən səni necə unuda billəm,
Məzara girsəm belə, tək sənlə yata billəm.
Məhşər günü tək sənin əlindən tuta billəm,
Səndən başqası yalan, anla bunu, bil bunu.

Cahid Sidqi Tarançı
(Türkiyə)

MƏMLƏKƏT İSTƏRƏM

Məmləkət istərəm –
göy mavi, budaq yaşıl, tarla sarı olsun.
Quşıarın,
çiçəklərin diyarı olsun.
Məmləkət istərəm –
nə başda dərd,
nə könüldə həsrət olsun,
qardaş qırğınına nihayət oısun.
Məmləkət istərəm –
nə zəngin, nə kasıb,
nə sən-mən fərqi olsun.
Qış günü hər kəsin öz ocağına
ərki olsun.
Məmləkət istərəm –
yaşamaq sevmək qədər könüldən olsun,
Olsa bir şikayət, ölümdən olsun.

Atilla Yardıcı
(Türkiyə)

YAŞIL BURSA

Məscid yaşıl, türbə yaşıl, dağ yaşıl,
Ağac yaşıl, bina yaşıl, bağ yaşıl.
Yaşıl doğan, yaşıl baxan Günəşmiş,
Yaşıl axan kainatmış, zamanmış.

Yaşıl-yaşıl açır səhər Bursada,
Şimşəklər də yaşıl çaxar Bursada.
Mavi göydən yaşıl baxar ulduzlar,
Yaşıl oddan çələng taxar ulduzlar.

Bursa – yaşıl, qanlı torpaq – Qarabağ,
Burdan – ora, ürək əsən bir yarpaq.
Burada yamyaşıl çağlar çinarlar,
Orada qan-qada ağlar çinarlar.

Ozod Əminzadə
(Tacikistan)

NİYƏ İNANMIRSAN

Mənə inanmırsan sən indən belə,
Yanıma da gəlmə,
inciməz qadın.
Yanıldım, aldandım adi bir dilə,
Sən ki pak eşqimə layiq olmadın.

Mən sənə təbəssüm hədiyyə verdim,
Əvəzi – yaş olub gözümdə qaldı.
İpək rübəndini məhəbbətimin
Üzümdən götürüb, ayağa saldı.

Eh, səni güldürdüm, özüm ağladım,
Ağa qara dedim, gündüzə gecə.
İncimiş qəlbimi hey budarladın,
Barı günahını duyaydın öncə.

Qayğısız, duyğusuz, hissiz ağılla
Dərdinin qəlbində necə ovundun?
Niyə öyünürsən yandırmağınla?
Yoxmu öz alovun, yoxmu öz odun?

Gəlmə, incimirəm, görünmə bir də,
Sən hələ sevməyi öyrət qəlbinə.
Ürək hərarətlə döyünməyirsə,
Sədaqət odunda yan dönə-dönə.

Həlimə Xudayberdiyeva
(Özbəkistan)

ULUQBƏYƏ KÖYNƏK TİKDİM

Uluqbəyə köynək tikdim, səhər durub soyunub,
Balam geyə, uça-qona, kəpənək tək əylənə.
Başqasına şərh etmədim mən könlümün toyunu,
Öz qəlbimdə saxladım ki, gülüm orda şənlənə.

Görsün, – dedim, – balam axır olanımı aydınca,
Görsün körpə anasının kitab tutan çağını.
Anasının qolları ki yazışmadan doyunca
Qəddin açıb, qayım-qədim tikişə də bağlanır.

Görsün, – dedim, çörək yapdım, səhər süddə yoğurub,
Süd dadını, gül dadını duysun, dedim, qoy körpəm.
Göz önümdən getmir, hələ anam hər səhər durub,
Biz durunca isti çörək çıxarardı təndirdən.

Yəhər-yüyən hazırlayıb, yəhərlədim Qırkuku,
Qamçı verdim, qanadlansın qoy balamın yel atı.
Balam uçsun babasını varlığına köçürüb,
Qırkuk, bizim öz atımız – Qıratın bir qanadı.

Ata-ana öyüdündən götürdüyüm nəyim var,
Heç birini unutmadan danışıram körpəmə.
Harda olsa, atam uçub yel qanadlı atıyla,
Anam şirin dillərilə girərdilər qəlbimə.

Öyrədirəm, amma bunu çox da asan bilməyək,
İllər ötür, bir-birini qovub keçir ömrümüz.
Gecələrim – hey yazmada, işıq yanır sübhədək,
Gündüzüm – iş, balaların könlün haçan alaq biz?

Yorğun çıxıb gələrəm ki, işə-gücə qoşulam,
Tez-tələsik sətirləri köçürərəm kağıza.
Vaxtım olsa, bir azacıq bu bildirçin quşuyla
"Çik-çik" edib quş dilində verəm ağız-ağıza.

Ata borcu-kürəyimdə çəkəcəyim ağır yük,
Bu yük balam qarşısında borcumdan da ağırdır.
Atacanım, sən arxamada uca dağsan ömürlük,
Balacanım – körpə quzum, bir şirincə çağımdır.

Əzizilərim, qarşınızda ödəməkçin borcumu
Dilim ilə, qolum ilə, qəlbim ilə işlərəm.
Siz var olun, siz yaşayın, sizdən alıb gücümü,
Yola çıxım, iki yanda sizi görsün gözlərim.
Uluqbəyə köynək tikdim, səhər durub geyinib...

Nadejda Çernova
(Qazaxıstan)

LEYLƏK HAQQINDA ƏFSANƏ

Rəqs eləyir ceyran kimi bir kəniz,
Döyür yeri hörüyünün pulları.
Teymurləngdə qalmayıbdır bət-bəniz,
Sızıldayır qılçaları, qolları.

Göy Xəzərdən külək qalxdı, vaxtdımı?
Axsaq leylək yuvasında büzüşür.
O bağlayıb bir qübbəyə baxtını,
Bu qübbədən alacığa gün düşür.

Dan sökülür, ayaqdadır düşərgə,
Dəvələr də fısıldayır, ləhləyir.
Əl saxlayıb o alaçıq sökənlər
Qıymadılar yuvasına leyləyin.

Hökmdar rəhm elədi bir quşa
Yuvadakı balalara görəmi?
Qan qırmızı səfər üstə yığışan
Dəvələrin qəm karvanı, irəli!

Əmir Teymur yenə kimdən heyf alar?
Əqiq olub çalmasında donan qan.
Tarlaları yovşanlayan tayfalar
Pırtlayacaq ayağının altından.

Müharibə! Yoxmu ayrı bir peşən?
Yolun üstdə maneələr qəlp çıxır.
Sən rəhm etdin bu gün topal bir quşa,
Yoxsa döyür yaddaşını o yuxu:

Gördün, atıb bir sirkanlı xəndəyə,
Cəllad sənə ac itləri muşqurur.
Ürəyində hönkürən də, sən demə,
O leyləkmiş, başın üstdə hıçqırır.

Əmr edirsən, işə düşsün nizələr,
Köks ötürür hıçqıraraq nağılçı:
Hökmdarın
sərtliyində – çilik-çilik kuzələr,
Hökmdarın
pərtliyində – bir quşun da ağrısı.

İsmət Bora Binatlı
(Türkiyə)

***

Günəş üfüqdən yüksəlir,
Yox olur məndə suizan?
Ürəyimdə bayram olur
Göyə yüksələrkən əzan.

Anarlar Hilal həbəşi
O çilə çəkən qardaşı.
Sönər cəhənnəm atəşi,
Cənnətə çevrilər cahan.

Küt beyin, xıltlı ürək,
Od püskürür kürək-kürək,
Nəfs olur günaha dirək,
Donur damarlarımda qan.

Haqqa dönük çıxsa üzlər,
Haqqa qarşı çıxar sözlər.
Dua etdikcə öksüzlər,
Yaxın gəlir ona xəzan?

Təkbirlə tək Birə qovuş
Yalnız onadır yalvarış.
Bahara dönər qara qış

Rəhminə qovuşsa bu can.

Cənnəti-ələda Kövsər, –
Rəbbim, bizə də bir az ver.
Bu qul cəmalını istər,
Onu məndən etmə pünhan.

MÜNDƏRİCAT:

Ruhumla söhbət 3
Bu gün evdə olmayacam 4
Səksən yaşıma 5
Ağlamaqdan keçib daha 7
Katarsis 8
Aktyor 9
İntihar 10
Acığını dodaqlarında 11
Dəyişdi dünyanın rəngi 12
Söz sizindir 13
Mən buyam 14
Sən nə düşünürsən 15
Səni 16
Hər cür səs eşidib qulağım, anam 17
Hərə özündən dəm vurur 18
Otaq tənha, oturmuşam bayaqdan bəri 19
Söz, sənət düzgüsündə 20
Bəlkə 21
Şübhə dumanıydı kəsdi yolları 22
Bütün fikirlər dolusu 23
İçimdə bir qorxu, tələş 24
Tanrı səsli 25
Qələbə zahirdə idi 28
Ağrısına dözdüyüm 29
Necə qaçım qurtarım 30
Düzü dilindən asıb 31
Kökümüz üstdə bitdik 32
Mən çoxdan 33

Qonaq kimi 35
Hələ bəla görməmişəm 37
Bombardman olunan ərəb xalqına 38
Yazmağa meylim azalıb.....39
Nərmənazik can – cəsəddi.....40
Vay halına, ay qız ağlı.....41
Mən ki olmamışam milyonluq elə.....42
Dünən hundum, bugün türkəm 43
Ürəyim ahdan üzülüb.....44
Bu dərddən də.....45
Mən də vuruldum bu pula 46
Ağır-ağır yazıram 47
Onun cəsədi-ölü.....48
At çiynindən tənbəlliyin kürkünü.....49
Gen-boluna xərcləyirik sözləri.....50
Deyən yenə varlığımdan yox oldum 51
Daha gözümdən qaçır.....52
"Yox" da bir sözdür 53
Lövhə.....54
Qulağıma səslər gəlir 55
Mənim düşüncələrim.....56
Bir qara qarğa gördüm.....57
Yaddaşımın sil-süpürü başlanıb.....58
Girib feyzbuklara.....59
Daim səni aldadır 60
Heç belə də iş olar!.....61
Elə düşünməyin susumaq razılıq.....62
Çaşıb əlimizdən çıxa bilmişik 63
Gizlə.....64
Açın gözlərinizi.....65

Əslində nə baş verib ki.....66
Xırda bir təsəlli boyu.....67
Darıxma.....68
Sağ olsun.....69
Yuxuyozma.....70
Hərə bir hava çalır.....71
Qayğılar alıb canımı.....73
...Üçün.....74
Bu qəmi bazara çəkmə, əzizim.....76
Dilimdə söz göynəyi var.....77
Əməl insafı ol, söz insafı ol.....78
Dərd açılsın başımdan.....79
Məni.....80
Əlimdən gəldi, gəlmədi.....81
Eh, daha o gün də deyil.....82
Yuxum.....83
İtən deyiləm.....84
Gözlərim (I naxış).....85
Gözlərim (II naxış).....86
Qoca Şərq.....87
Bu gündən əsgərdirlər.....91
Elegiya.....94
Xəzinələr var.....95
Məndən daha ümid, inam gözləmə.....96
And yaxası.....97
Oyanır yavaş-yavaş.....99
Xatirə.....100
Yaxşı ki.....101
Ümid.....103
Qəriblik.....104

Ay nənələr, ay analar toxtayın.....105
Bu yerdə.....106
Qəlbimizin harayı.....107
Sənə əziyyət oldum.....109
Lap deyək elə mən də.....110
Yaddaşa aparan cığır.....111
Qış qarından boylanar.....112
Nə deməyə sözüm qalıb.....113
Mən sınıb qalmışam.....114
Deyil.....115
Kim deyir ki, cansızdı.....116
Var mənim.....117
Açılmır.....118
Vaxtı əzbərləyirəm.....119
Qərib qala bilmirəm.....121
Çoxdan çəkib qurtardığım.....123
Ucalıqdan yoruldun.....125
Fikir qaxac olub.....126
Bəsdir.....127
Ola.....128
Varağını qatlama.....129
Ağız dolusu susmaq.....130
Qarın sümüklərini.....131
Xatirə.....132
Bu doğmalıq, bu yadlıq.....133
Azəri oğlu.....134
Gülə-gülə.....137
Ürəyim ahdan üzülüb.....138
Bu dərddən də.....139
Mən də vuruldum bu pula.....140

Tale deyil hər yazılan 141
Qəlbini gözündən oğurladılar 142
Yeni il 143
Yoxdu harayımda 147
Əbədiyyət 148
Qaçdım o meydandan ki 149
Payımızla susuruq 150
Dalğa və mən 151
Ürəklə pozulub söz ilqarımız 152
Həyat yolu 153
Bacılarım 155
Sərkərdə xəyalım, atlı xəyalım 157
Yuxuda deyilənlər 158
Dağlar – yollar 159
Sabaha məhəbbəti 160
Heç nə bizi 161
Göylə zarafat 162
Özünü 163
Çağır məni ayağına 164
Bu yaz yağışları 165

DİLSİZ DOSTLARIMIZA

Pişiklə dostluq edən balaca Çiçəyə 168
Pişik 169
Pişik deyil, bəladı 170
Pişiyin balasına öyüdü 172
Pişik və dükançı 174
Tülkünün məktubu 175
Pələng baba tülkücüyə 178
Qorilla laylası 179

DÜNYA ƏDƏBİYYATINDAN TƏRCÜMƏLƏR

Dəvət 182
Məni yalqız buraxın 183
Türk qəhvəsinin dadı 185
Mahnıya söz 186
Mavi.....187
Gecə yarısında bir yalqız adam 188
Bir qapqara tül çəkili – hər gecə.....190
Səndən başqası yalan 191
Məmləkət istərəm 193
Yaşıl Bursa 194
Niyə inanmırsan 195
Uluqbəyə köynək tikdim.....197
Leylək haqqında əfsanə 199
Günəş üfüqdən yüksəlir 201

Tərcümeyi-hal

Firuzə Məmmədli - Firuzə Nurəddin qızı Məmmədova – 1940-cı ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunun Canaxır kəndində ziyalı ailəsində dünyaya gəlmişdir. 1949-1958-ci illərdə Hülövlü kənd orta məktəbində oxumuş və orta təhsilini gümüş medalla başa vurmuşdur. 1955-ci ildə əla təhsil və məktəbyanı təcrübə sahəsində yetişdirdiyi yeni meyvə sortlarına görə Ümumittifaq Kənd Təsərrüfat Sərgisinin bürünc medalına layiq görülmüşdür.

1960-cı ildə Quba Tibb Texnikumuna daxil olmuş və 1963-cü ildə texnikumu əla qiymətlərlə bitirmişdir. 1964-cü ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil - ədəbiyyat fakültəsinə daxil olmuş, 1968-ci ildə İnstitutu fərqlənmə diplomu ilə bitirmişdir.

1968-70-ci illərdə təyinata əsasən Naxçıvan şəhər Pedaqoji Texnikumunda və ADPU-nun (o vaxt üçün V.İ.Lenin adına APİ) Naxçıvan filialında müəllim işləmişdir.

1970-ci ildə Bakıya qayıdaraq bitirdiyi İnstitutun Azərbaycan dilçiliyi kafedrasında işə qəbul olunmuşdur. 1980-cı ildə "Y.V.Çəmənzəmənlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək

filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. 1990-cı ildən Müasir Azərbaycan dili kafedrasında işləmiş və dosent vezifəsinə kimi yüksəlmişdir.

Firuzə Məmmədova dilçi-alim, ədəbiyyatşünas kimi Respublikamızın elmi ictimaiyyətinə yaxşı tanışdır. Onun "Seçilmiş əsərlərin"nin III cildinə daxil edilmiş "Y.V.Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri", "Bədii dilin estetik mənbələri", "Azərbaycanın şimal-şərq bölgəsinin etnolinqvistik vahidləri" monoqrafiyaları, eləcə də cildə daxil edilmiş elmi və publisistik məqalələri mütəxəssis alimlər tərəfindən yüksək qiymətləndirilmiş, tələbə və magistrantların tez-tez müraciət etdiyi mənbələrdən biri olmuşdur. Sonrakı illərdə alimin Azərbaycan ədəbi dili (1990-2010-cu illər), "Azərbaycan dilində linqvistik ekvivalentlər" adlı elmi əsərləri çap olunmuşdur.

Firuzə Məmmədova bir sıra dərs vəsaiti, metodik tövsiyə və proqramların da müəllifidir. O onlarla magistrantın elmi rəhbəri olmuşdur. Azərbaycan Dövlət Pedoqoji Universitetində işlədiyi 50 il ərzində yüzlərlə müəllim kadrlarının hazırlanmasında onun da xüsusi xidmətləri vardır.

"Gümüşü damla" adlanan ilk kitabı 1973-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən çap edilmişdir. Bundan sonra nəşr olunan "Yoluma bahar düşüb",

“Sənin ömrün”, “Yetkinlik”, “Bir qarış ucalıq”, “Məni mənlə bölən dünya”, “Dilək yaxasına dönnəm yenidən”, “Aşacağam zaman adlı sədləri” “Dərd üzünü gizləyir”, “İki damla dəniz”, “Nə yaxşı yaxamda söz medalım var”, “Dünya gözəlliklə dolu”, “Savaş fəsli”, “Söz sizindir” və s. poetik topluları ədəbi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılanmışdır. 2002-2019-cu illər ərzində şairənin on cildlik “Seçilmiş əsərləri” çapdan çıxmışdır.

Firuzə Məmmədova (Məmmədli) qələmini nəsr və tərcümə işi sahəsində də sınamış dünya ədəbi nümunələrinin dilimizə çevrilməsi sahəsində də bir sıra işlər görmüş - rus, özbək, tacik, türk və fars dillərindən tərcümələr etmişdir.

Firuzə Məmmədlinin şeirlərindən nümunələr ingilis, rus, özbək, türkmən, gürcü, ukrayn, polyak, fransız, türk və fars dilinə tərcümə edilmişdir.

1992-ci ildə Türkiyənin Bursa şəhərində keçirilən “Türkcənin Uluslararası Şeir Şölənininin” üç böyük mükafatından biri olan “Əlişir Nəvai” mükafatına layiq görülən şairə, sonrakı illərdə dəfələrlə belə festivalların və simpoziumların iştirakçısı olmuş, bir sıra diplom və sertifikatlarla mükafatlandırılmışdır. 2017-ci ildə Azərbaycan Respublika Mədəniyyət Nazirliyi tərəfindən “Qızıl kəlmə” mükafatı, 2019-cu ildə “Nəsimi” mükafatı,

2021-ci ildə III dərəcli "Əmək" ordeni ilə təltif olunub.

Firuzə Məmmədli 37 şeir, nəsr və elmi tədqiqat əsərləri, o cümlədən 5 monoqrafiyanın və çoxsaylı elmi və publisistik məqalənin müəllifidir.

Firuzə Məmmədli 2008-ci ilin Prezident təqaüdçüsüdür. O, 1912-ci ildə ADPU-nun 90 illik yubileyi münasibəti ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Firuzə xanım hələ tələbəlik illərində (1965-ci il) Azərbaycanın bütövlüyü və müstəqilliyi uğrunda gənclər hətəkatına qoşulmuşdur.

Firuzə Məmmədli hazırda AYB Həmkarlar İttifaqının sədridir.

*** KİTABLARI**

1. Gümüşü damla. Bakı, "Gənclik", 1972, 48 s.
2. Yoluma bahar düşüb. Bakı "Gənclik", 1978, 54 s.
3. Sənin ömrün. Bakı, "Yazıçı", 1982, 60 s.
4. Yetkinlik. Bakı, "Yazıçı" 1989,127 s.
5. Bir qarış ucalıq. Bakı "Gənclik", 1995, 167 s.
6. Bədii dilin estetik mənbələri (Dərs vəsaiti). Bakı, ADPU, 1997, 85 s.
7. Məni mənlə bölən dünya. Bakı "Gənclik", 1999, 266 s.

8. “Seçilmiş əsərləri” I c. Bakı, “Nurlan”, 2002, 432 s.

9. “Seçilmiş əsərləri” II c. Bakı, “Nurlan”, 2002, 446 s.

10. “Seçilmiş əsərləri” III c. Bakı, “Nurlan”, 2004, 550 s.

11. Y.V.Çəmənzəminlinin tarixi romanlarının (“Qızlar bulağı” və “Qan içində”) dil və üslub xüsusiyyətləri. (Monoqrafiya), Bakı, ADPU, 2005, 166 s.

12. Azərbaycan dilinin linqvistik poetikası və mətnin təhlili (proqram). Bakı, ADPU, 2005, 16 s.

13. Ömrün axarı. Bakı “Gənclik”, 2005, 320 s.

14. Dilək yaxasına dönnəm yenidən. Bakı, “Vektor”, 2006, 256 s.

15. “Seçilmiş əsərləri” IV c. Bakı, “Nurlan”, 2008, 430 s.

16. “Seçilmiş əsərləri” V c. Bakı, “Nurlan”, 2009, 412 s.

17. Aşacağam zaman adlı sədləri. Bakı “Elm”, 2010, 159 s.

18. İki damla dəniz. Bakı, “Adiloğlu”, 2011, 181 s.

19. Dərd üzünü gizləyir. Bakı, “Adiloğlu”, 2011, 159 s.

20. Azərbaycan dilinin linqvistik ekvivalentlər (dərs vəsaiti). Bakı, ADPU, 2012, 45 s.

21. Azərbaycan ədəbi dili (dərs vəsaiti). Bakı, ADPU, 2012, 49 s.

22. "Seçilmiş əsərləri" VI c. Bakı, "Nurlan", 2012, 417 s.

23. "Seçilmiş əsərləri" VII c. Bakı, "Nurlan", 2013, 412 s.

24. "Seçilmiş əsərləri" VIII c. Bakı, "Nurlan", 2016, 420 s.

25. "Söz macalı", "Qanun" nəşriyyatı, 2017.

26. "Seçilmiş əsərləri" IX c. Bakı, "Nurlan", 2018, 420 s.

27. "Seçilmiş əsərləri" X c. Bakı, "Nurlan", 2019, 500 s

28. "Nə yaxşı yaxamda söz meddalım var", "Şirvannəşr", 191 s.

29. "Dünya gözəlliklə dolu", "Elm və Təhsil", 2021, 216 s.

30. "Savaş fəsli", "Elm və Təhsil ", 2021, 192 s.

31. "Söz sizindir", "Elm və Təhsil", 2021, 189 s.

6 adda tərcümə əsəri də daxil olmaqla 37 kitab.

*** DÖVLƏT, BEYNƏLXALQ MÜKAFAT VƏ DİPLOMLARI**

1955-ci ildə Ümumiittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalı.

1959-cu ildə Orta məktəbi bitirməklə bağlı gümüş medalı.

1992-ci ildə Türkiyədə düzənlənən Beynəlxalq şeir müsabiqəsinin "Əlişir Nəvai" mükafatı.

2007-ci ildə Beynəlxalq "Rəsul Rza" mükafatı.

2008-ci ildə Prezident təqaüdü.

2012-ci ildə "Tərəqqi" medalı.

2016-cı ildə Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı.

2017-ci ildə "Qızıl kəlmə" mükafatı.

2019-cu ildə "Nəsimi" mükafatı.

2020-ci ildə Azərbaycam MİHİRK-nin fəxri fərmanı.

2020-ci ildə Azərbaycan Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanı.

2021-ci ildə "Əmək" ordeni.

Bundan əlavə müxtəlif illərdə xarici ölkələrdə keçirilən şeir şölənləri və müsabiqələrin xüsusi diplomları və sertifikatları.

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 26.07.2021
Şərti çap vərəqi 13. Sifariş № 259
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4